Xalqın qəzeti!

# Xalq qəzeti

№ 79 (30483) 20 aprel 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Ermənistan Qazaxın işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərini Azərbaycana qaytarır

# Azərbaycanın zəfər marafonu davam edir

### *İlham Əliyevin lider, diplomat və sərkərdə məharəti 4 kəndimizi dinc yolla xalqımıza qaytardı*

**Nəhayət, gözlədiyimiz gün yetişdi. Qazax rayonunun erməni işğalı altında olan dörd kəndinin qaytarılması razılaşdırıldı. Müjdəli xəbər dünən günün sonuna yaxın açıqlandı. Bu barədə iki ölkə arasında sərhəddə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın səkkizinci görüşündə razılığa gəlindi.**



Görüşlə bağlı yayılan məlumatda delimitasiya prosesinin ilkin mərhələsində tərəflərin sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) – Bağanıs Ayrım (AR), Voskepar (ER) – Aşağı Əskipara (AR), Kirants (ER) – Xeyrımlı (AR) və Berkaber (ER) – Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsi razılaşdırılıb bildirilib.

Həmçinin qərara alınıb ki, sərhəd xəttinin bu hissələrinin təsviri koordinatları yerdəki geodeziya ölçmələrinə əsaslanaraq, dəqiqləşdirilməsi nəzərə alınmaqla tərtib edilməli və bu, tərəflər arasında 2024-cü il mayın 15-dək müvafiq protokol-təsvirlə sənədləşdirilərək, razılaşdırılmalı və imzalanmalıdır.

(ardı 3-cü səhifədə)

## Yüksəliş güzəran, rahatlıq tərəqqi gətirir




**Özünün daxili imkanlarına, zəngin təbii sərvətlərinə əsaslanan Azərbaycan artıq 30 ildən artıqdır ki, müstəqil iqtisadi siyasət yürüdür, bir sıra qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış edir. Bu isə ölkəmizi regionda və dünyada mühüm tərəfdaşa və nüfuz sahibinə çevirir.**

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü iqtisadi strategiyanın uğurla davam etdirilməsi, qlobal enerji layihələrinin reallaşdırılması nəticəsində ötən illər dünyada baş vermiş maliyyə böhranlarının, COVİD-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişaf tempini qoruyub saxlaya bilmişdir.

(ardı 7-cl səhifədə)

## Lemkin institutu da “erməni xəstəliyi”nə yoluxub

Lemkin Institute for Genocide Prevention

Səhifə ⇨ 4

## Qazaxda 4 kəndin azadlıq xəbəri toy-bayramla qarşılandı



**Qazax sakinləri illərdən bəri işğal edilmiş Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin ölkəmizə qaytarılması üçün əldə olunan razılaşmanı böyük sevinclə qeyd ediblər.**

XQ-nin məlumatına görə, bu gün bir qrup sakin avtomobilləri ilə şəhər ərazisində dövrə vurub, əllərində Azərbaycan Bayrağı ilə sevinc hisslərini nümayiş etdiriblər.

Sakinlər xalqımıza qazandırdığı növbəti qələbəyə görə Prezident İlham Əliyevə hədsiz minnətdarlıqlarını bildiriblər.

**XQ**



## Lavrovun anti-Ermənistan demarşları

Səhifə ⇨ 6

## İsrailin İranla “zərbə dialoqu”



Səhifə ⇨ 11

## Təxribatlar bumeranqa çevrilir



Səhifə ⇨ 4

# Xəzər də evlərimizə şirin su axıdacaq

**Prezident İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında hazırda üzərində iş aparılan Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi barədə də fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı bu layihənin icrasından sonra Xəzər dənizinin suyundan həm suvarma, həm də içməli su kimi istifadə ediləcəyini bildirib. Ölkə rəhbəri daha sonra deyib: “Dünyanın bir neçə ölkəsi duzsuzlaşdırma sahəsində böyük təcrübəyə malikdir və bizim də Xəzər dənizi kimi böyük su hövzəmiz var. Təbii ki, biz bu imkandan da istifadə edəcəyik”.**



(ardı 7-ci səhifədə)

## “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.15-ci, 253-1.16-cı, 446.2-2-ci və 448.6-3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 253-1.15-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 253-1.15-ci maddəsinə uyğun olaraq, üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması, satılması, icarəyə və ya idarəetməyə verilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.16-cı, 446.2-2-ci və 448.6-3-cü maddələrində nəzərdə tutulmuş “orqan (qurum)” barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü abzasa “Məcəlləsinin” sözündən sonra “251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.15-ci, 253-1.16-cı, 446.2-2-ci, 448.6-3-cü,” sözləri əlavə edilsin;

3.2. beşinci – iyirmi üçüncü abzaslar müvafiq olaraq altıncı – iyirmi dördüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

“həmin Məcəllənin 253-1.15-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 19 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1950 (Cild I) ilə təsdiq edilmiş “Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi”nin 1.1-ci bəndində “təhsil haqqında dövlət sənədinin” sözləri “sənədin” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 19 aprel 2024-cü il**

## “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin 2.9-cu bəndinə “Milli Məclisi,” sözlərindən sonra “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman),” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 218 (Cild I) ilə təsdiq edilmiş “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”na aşağıdakı məzmunda 4.16-cı bənd əlavə edilsin:

“4.16. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) insan hüquqları sahəsində dövlət proqramlarının icrası prosesinin təhlilini apara, rəy və təkliflərini monitorinq və qiymətləndirmə orqanına (qurumuna) təqdim edə bilər.”.

**3.** “Dövlət icbari şəxsi sığorta sisteminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin və “e-sosial” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 15 aprel tarixli 634 nömrəli və “Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2021-ci il 18 may tarixli 1340 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1541 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1406 (Cild I) 5-ci hissəsinə “Milli Məclisinə,” sözlərindən sonra “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana),” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 19 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 624 (Cild I) ilə təsdiq edilmiş “Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissəyə “şəxslər” sözündən sonra “bu Əsasnamənin 8-ci hissəsi nəzərə alınmaqla” sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 8.4-1-ci bənd əlavə edilsin:

“8.4-1. həkim vəzifəsi üzrə qulluğa qəbul üçün müraciət edən şəxslər (praktik tibb fəaliyyəti ilə məşğul olmaq hüququna və iddia etdiyi vəzifə üzrə azı 3 (üç) il iş təcrübəsinə malik olduqda);”.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 19 aprel 2024-cü il**

## Xarici İşlər Nazirliyində görüş və müzakirələr

**Aprelin 19-da Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun Fələstin Dövlətinin Baş naziri, eləcə də Xarici İşlər və Xaricdə Yaşayan Fələstinlilər üzrə naziri Məhəmməd Mustafa ilə telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan və Fələstin arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlər, habelə Qəzzadakı vəziyyət müzakirə olunub.



Ceyhun Bayramov Baş nazir Məhəmməd Mustafaya bu əhəmiyyətli vəzifəyə təyinatı münasibətilə təbriklərini çatdırıb. Baş nazir də öz növbəsində ölkəmizi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi münasibətilə səmimi-qəlbdən təbrik edib.

Azərbaycanın Fələstin məsələsinin beynəlxalq hüququn normaları, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən “iki dövlət həlli”nin tərəfdarı olduğunu hər zaman dəstəklədiyini, bu istiqamətdə milli səviyyədə, o cümlədən, Qoşulmama Hərəkatına sədrlik dönəmində münaqişənin nəticələrinin aradan qaldırılması sahəsində əməli addımlar atdığı diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi (UNRWA) vasitəsilə Fələstinə göstərdiyi 2 milyon ABŞ dolları məbləğində yardımı, eləcə də fələstinli tələbə və diplomatlar üçün təlim-tədris proqramlarının mövcudluğu məmnunluqla qeyd olunub.

*

**Aprelin 19-da Xarici İşlər naziri Ceyhun Bayramov Əlcəzairin ölkəmizdəki səfiri Abdelvahab Osmanı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**



Ceyhun Bayramov ölkəmizdə fəaliyyəti dövründə Azərbaycan və Əlcəzair arasında münasibətlərin inkişafı istiqamətində göstərdiyi səylərə görə səfir Abdelvahab Osmana təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər Azərbaycanla Əlcəzair arasında artan tərəfdaşlığın, dost münasibətlərin, yüksək səviyyəli təmasların məmnunluq doğurduğunu vurğulayıblar.

Keçmiş Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı Əlcəzairin, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinə hər zaman dəstək olmasının tərəfimizdən yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb.

*

**Həmin gün Xarici İşlər naziri Ceyhun Bayramov İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Klaudio Taffurini də diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.**

Görüşdə Azərbaycan və İtaliya arasında mövcud çoxölçülü strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, habelə cari regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov ölkəmizdə fəaliyyəti dövründə Azərbaycan və İtaliya arasında münasibətlərin inkişafı istiqamətində göstərdiyi səylərə görə səfir Klaudio Taffuriyə təşəkkür edib, ona gələcək fəaliyyətində davamlı uğurlar arzu edib.

**XQ**

## Mərkəzi Seçki Komissiyasının nümayəndə heyəti Maldiv Respublikasında parlament seçkilərini müşahidə edəcək

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 21-də Maldiv Respublikasında keçiriləcək parlament seçkilərini müşahidə etmək məqsədilə paytaxt Male şəhərinə səfərə yola düşüb.**

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, nümayəndə heyətinin seçkilərdə beynəlxalq müşahidəçi qismində iştirakı Maldiv Respublikası Seçki Komissiyası sədrinin dəvətinə əsasən reallaşdırılır.

Səfər zamanı Mərkəzi Seçki Komissiyasının nümayəndələri parlament seçkilərinə hazırlıqlarla tanış olacaq və səsvermə məntəqələrində seçki günü prosedurlarını müşahidə edəcəklər.

Səfər çərçivəsində sədr Məzahir Pənahovun Maldiv Respublikası Seçki Komissiyasının sədri Fuvad Tovfeek, habelə seçkilərin müşahidəsinə qatılan təşkilatların və xarici ölkələrin seçki idarəetmə orqanlarının rəhbərləri ilə görüşlər keçirməsi, qurumlararası əməkdaşlıq imkanları, əlaqələrin dərinləşdirilməsinin inkişaf perspektivləri və qarşılıqlı maraq kəsb edən məsələlərlə bağlı müzakirələr aparması da nəzərdə tutulur.

## “Xəzər səması–2024” birgə taktiki təlimi

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi bu ilin hazırlıq planına əsasən, Hərbi Dəniz və Hava qüvvələri ilə birgə "Xəzər səması–2024" hava hücumundan müdafiənin təşkili mövzusunda taktiki təlimi keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, taktiki təlimə, ümumilikdə, 300 nəfərədək şəxsi heyət, döyüş, idarəetmə və gözətçi gəmiləri, katerlər, döyüş helikopterləri və pilotsuz uçuş aparatları cəlb edilib.

Plana uyğun olaraq həyəcan siqnalı ilə baza məntəqəsindən ayrılan gəmilər Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda Hərbi Hava Qüvvələri aviasiya vasitələri ilə birgə dəniz enerji infrastrukturunun hava hücumundan müdafiəsinin təşkili, şərti düşmən hədəflərinin məhv edilməsi, eləcə də digər döyüş tapşırıqlarının icrası üzrə praktiki fəaliyyətləri yerinə yetiriblər.

İki mərhələdə keçirilən taktiki təlimdə Hərbi Dəniz və Hava qüvvələrinin şəxsi heyəti qarşıya qoyulan bütün tapşırıqların icrasında yüksək peşəkarlıq nümayiş etdirib.

# Azərbaycanın zəfər marafonu davam edir

## İlham Əliyevin lider, diplomat və sərkərdə məharəti 4 kəndimizi dinc yolla xalqımıza qaytardı




**(əvvəli 1-ci səhifədə)**

Sözsüz ki, 4 qeyri-anklav kəndin bir güllə atılmadan, qan tökülmədən ölkəmizə qaytarılması ardıcıl qələbələr qazanan Azərbaycanın və Prezident İlham Əliyevin növbəti Zəfəridir. Azərbaycanın bir qarış torpağından, o cümlədən Qazax rayonunun işğal altındakı kəndlərindən də vaz keçməyəcəyi gün kimi aydın idi. 2016-cı ilin Aprel döyüşləri ilə əsası qoyulan, 2018-ci ilin may ayında qazanılan Günnüt zəfəri ilə davam etdirilən qələbələrimiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində özünün məntiqi sonluğuna çatdı. Bu qələbə 2023-cü ilin sentyabrında suverenliyin tam bərpası, rus sülhməramlılarının bölgədən çıxmasından sonra Azərbaycan torpaqlarını addım-addım, qarış-qarış toplayan Prezident İlham Əliyevin xalqa növbəti hədiyyəsi və müjdəsidir.

Dövlətimizin başçısı qeyri-anklav kəndlərin qaytarılması məsələsini 2020-ci ildən qaldırmışdı. Ötən müddət ərzində mövzu daim gündəlikdə saxlanıldı və bu istiqamətdə ardıcıl və məqsədyönlü iş aparıldı. Hələ 2023-cü il oktyabrın 7-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə telefon danışığında Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, bu kəndlərin işğaldan azad edilməsinin vacibliyini vurğulamışdı.

Əslində, aprelin 19-da əldə olunmuş razılıq sərhədin delimitasiyası istiqamətində atılan ilk addımdır. Delitimasiya prosesinin məhz bu istiqamətdən başlaması da Azərbaycanın təkidi sayəsində oldu.

Eyni zamanda, Azərbaycanın, guya, Ermənistana hücum etməyə hazırlaşması, Hayastan ərazisində hərbi hədəflərin olmasına dair Fransa və digər Qərb dövlətlərinin təbliğatı da bir daha ifşa olundu. Rəsmi Bakı ABŞ və Aİ-nin bu məsələlərə müdaxiləsinə imkan vermədi. Baxmayaraq ki, Qərbin bir sıra ölkələri, o cümlədən Fransa Azərbaycanın Ermənistana hücuma hazırlaşdığına dair dayanmadan yalan məlumatlar yayır, dünya ictimaiyyətini çaşdırmağa çalışırdılar. Onlar bu gün də öz siyasətlərini yaydıqları yalanlara uyğunlaşdıraraq aparırlar. Ermənistana hər cür köməyin, ilk növbədə isə hərbi yardımın göstərilməsini məhz “bu arqumentlə əsaslandırmağa” cəhd edirlər. Amma, rəsmi İrəvanın 4 kəndi sülh yolu ilə qaytarmağa razılıq verməsi həm də ölkəmizin qonşu dövlətə qarşı heç bir hücuma hazırlaşmadığının və bütün məsələlərin dinc yolla həllinin tərəfdarı olduğunun ifadəsidir. Ermənistan və Azərbaycan birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb məsələni həll etdilər. Odur ki, Qərbin bəzi dövlətləri və neoimperialist dairələr proseslərdən nə qədər uzaq dayansalar, Cənubi Qafqazda sülh və əmin-amanlıq bir o qədər tez təmin oluna bilər. Əslində, bu hadisə Ermənistanı yeni müharibəyə sürükləmək istəyənlərə də tutarlı cavab oldu.

Bəli, Azərbaycan öz məqsədinə doğru addım-addım, həm də liderinə böyük etimad və inamla irəliləyir. Qarabağda erməni separatizminin kökünü qazan, Xankəndini xunta rejimindən təmizləyərək, orada üçrəngli bayrağımızı dalğalandıran Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev yenə dediyi sözün ağası olduğunu sübuta yetirdi. Xalqını qələbələrdən qələbələrə aparan, zəfərlərin paradını sıralayan, nəyi, necə və nə zaman etdiyini dəqiq bilən liderin sərkərdə və diplomat dühasına heyran qalmamaq mümkün deyil. Bu gün, sadəcə, o dörd kənddən didərgin salınmış soydaşlarımızın sevindiyi gün deyil. Bu gün bütövləşmiş Azərbaycanın bütün vətəndaşlarının, dünya azərbaycanlılarının qürur duyduğu gündür.

Bu gün “dəmir yumruq” ətrafında sıx birləşən xalqımıza təkcə ermənilər deyil, bütün dünya qibtə edir. Çünki onun layiq olduğu liderinin yaratdığı uğur tablosuna baxıb sevinməyə haqqı var. Xalqımıza daim sevinmək və qürur duymaq yaraşır!

**İmran BƏDİRXANLI,**
**Səxavət HƏMİD,**
**XQ**

### Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**



Dörd kəndin qaytarılması gözlənilən hadisə idi. Şükürlər olsun ki, Nikol Paşinyan iqtidarında bu məsələni münaqişə müstəvisinə çəkməklə deyil, beynəlxalq hüquq çərçivəsində həll etməyə ağılları çatdı. Axı, İrəvan Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərini tanıdığını elan edib. Bizim işğal altında saxladıqları kəndlərimizdən çıxmaq tələbimizdən boyun qaçırmaq mümkün deyildi. Sadəcə olaraq, qarşı tərəf anladı ki, bu məsələ ya xoşluqla, sual doğuran digər məsələlər də kompromislə, hüquqi müstəvidə öz həllini tapacaq, ya da Bakı alternativ varianta əl atacaq. Bu isə Ermənistana müsbət heç nəyi vəd etmirdi. Paşinyanın həmin bölgəyə iki dəfə səfər etməsi, kənd sakinləri ilə görüşməsi sənədin imzalanmasına hazırlıq mərhələsi idi. Yəni, proses qarşılıqlı maraq və istəklər nəzərə alınmaqla başa çatdı.

İndi tərəflərə müəyyən vaxt verildi. Bəli, bizim hərbçilərin dərhal həmin kəndlərə yerləşməsi erməniləri vahiməyə sala biləcəyinə görə müəyyən vaxta ehtiyac var. Azərbaycanın strateji yüksəkliklərdə mövqe tutması ərazini dəqiqliklə nəzarətdə saxlamaq üçün daha əlverişlidir. Bütün hallarda bizim üçün ən vacib məsələ Ermənistan qoşunlarının oradan çıxarılmasıdır. Ardınca həm hərbi istehkamların demontaj edilməsi, həm də ərazinin minalardan təmizlənməsi prosesi başlayacaq. Yalnız bundan sonra bərpa-quruculuq işlərinə start verilə bilər. Yeni yol çəkmələri üçün də ermənilərə vaxt verilib. Əlbəttə ki, bu növbəti qələbə cənab Prezidentin təmkinli, ardıcıl və uğurlu siyasətinin nəticəsidir.

### Ekspert rəyi

**Səməd SEYİDOV,**
**Milli Məclisin deputatı**



Hazırda Azərbaycanda böyük qələbənin sevinci yaşanır, Qazaxda toy-bayramdır. Qazaxlılar əmin idilər ki, həmin kəndlər azad ediləcək. Hər görüş və tədbirdə cənab Prezidentin siyasətinə dəstək verərək onlar kəndlərin qaytarılacağına inandıqlarını vurğulayırdılar. Həmin tarixi anın şahidiyik. Buna görə də Qazaxdan seçilmiş deputat kimi rayon əhalisi adından cənab Prezidentə təşəkkürümü bildirir və sevinc hisslərimi çatdırıram.

Biz illər boyu bunu gözləyirdik. Bugünlərdə rayonda keçirilən konfransdan öncə şəhidlərin məzarını ziyarət etdik. Orada həyatlarını itirənlərin bir qismi indi qaytarılan kəndlər uğrunda gedən döyüşlərdə şəhid olmuşdular. Biz orada əminliyimizi bildirdik ki, haqq-ədalət öz yerini tapacaq və bu gün Qazax inkişaf etdiyi kimi həmin kəndlər də inkişaf edəcək. Görürüsünüz, indi həmin tarixi günü yaşayırıq. Ümumiyyətlə, onu deməliyəm ki, Prezident İlham Əliyevin apardığı siyasətə qiymət vermək üçün söz tapmaq çətindir. Bu, sadəcə möcüzədir. Həm torpaqlarımız işğaldan azad edildi, həm Qarabağ separatçılardan təmizləndi. Eyni zamanda bəzi bədxahlar deyirdilər ki, rus ordusu Qarabağdan çıxmayacaq. Rus sülhməramlıları da ərazini tərk etdi. Kəndlər qaytarılmayacaq dedilər, qaytarıldı. Yollarımız da, Zəngəzur dəhlizi də açılacaq. Ümummilli lider vaxtilə deyirdi ki, Azərbaycan dünyaya Günəş kimi doğacaq. Həmin günləri yaşayırıq. Azərbaycanın işğalda olan son kəndlərinin geri qaytarılmasına görə çox sevinirəm.

Ermənilər çox gözəl başa düşürlər ki, Azərbaycanın yaratdığı reallığa müqavimət göstərməyə, nəinki, gücləri yoxdur, onu reallışdırmağa məcburdurlar. Ona görə də biz deyənlə razılaşırlar və bu proseslər gedir. Bu yaxşı haldır. Konstitusiyalarını dəyişsinlər, kəndləri də qaytarsınlar və normal dövlət qursunlar. Müstəqil olmaq istəyirlərsə, olsunlar. Cənab Prezident demişkən müstəqil olmaq istəyirsən ol, istəmirsənsə, dirəkdən bayrağı endir, bük cibinə qoy. Müstəqil olmaq istəyirsə, aparıcı qüvvələrin fikrini, mövqeyini mütləq nəzərə almalısan. Kəndlərin qaytarılması heç də özbaşına baş verən hadisə deyil. Bu, Azərbaycanın apardığı sülhsevər siyasətin məntiqi nəticəsidir. Azərbaycanın təklifləri nəzərə alınmazsa, Ermənistanın gələcəyi yoxdur.

### Ekspert rəyi

**Aydın QULİYEV,**
**siyasi şərhçi**



Dörd kəndin azad olunması bizim mühüm tarixi qələbələrimizdən biridir. O mənada ki, bir güllə belə atmadan, hərbi əməliyyat aparılmadan yalnız diplomatiyanın və siyasətin gücü ilə 4 kəndin qaytarılmasına nail olmaq, doğrudan da, böyük uğurdur. Onu da nəzərə almaq lazımdır ki, kəndlərin qaytarılması ilə bağlı İrəvanın, necə deyərlər, yola gətirilməsi Ermənistanda çox ciddi siyasi çəkişmələr şəraitində baş tutub. Biz bilirik ki, Ermənistan hakimiyyəti özü məsələyə müəyyən qədər anlayışla yanaşsa da, orada çoxlu revanşist qüvvələr var. Xüsusilə kilsə hər vasitə ilə 4 kənd məsələsində ciddi müqavimət mövqeyində idi. Onlar heç bir güzəştə gedilməsinin tərəfdarı deyildilər. Bu şəraitdə Azərbaycanın siyasi-diplomatik təzyiqləri, nəhayət, Ermənistanı güzəştə getməyə vadar etdi və 4 kənd geri qaytarıldı. Bu, böyük qələbədir. Onu məzmun etibarilə Vətən müharibəsindən sonrakı dövrdə Ağdamın, Kəlbəcərin və Laçının qaytarılması ilə müqayisə etmək olar. Onlar da bir güllə atılmadan azad olunmuşdu. Amma hər halda 4 kəndin döyüşsüz azad olunmasını tarixi şəraitdəki məzmununa görə daha üstün hesab etmək lazımdır. O mənada ki, rayonların qaytarılması müharibədən dərhal sonra baş vermişdi və bununla bağlı razılıq əldə edilmişdi. Ermənistan üçtərəfli bəyanatda 3 rayonu könüllü və döyüşsüz azad edəcəyinə razılıq vermişdi və həmin şərt çərçivəsində müharibə başa çatdırılmışdı. Ancaq 4 kəndimizi biz 10 noyabr razılaşmasından sonrakı dörd il ərzində çox gərgin diplomatik, siyasi çəkişmə şəraitində azad etməyə nail olduq. Həm də dediyim kimi, Ermənistanda revanşist qüvvələrin çox ciddi müqavimətinə baxmayaraq, biz bunu həyata keçirə bildik. Əlbəttə, bu, Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin böyük nailiyyətidir. Aparılan uğurlu siyasətin və parlaq diplomatiyanın real nəticəsidir.

# Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi Komissiyasının 8-ci görüşünün yekunlarına dair mətbuat açıqlaması

**19 aprel 2024-cü il**

2024-cü il aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirilib.

Görüş zamanı komissiyalar aşağıdakılar barədə razılığa gəliblər:

• Delimitasiya prosesinin ilkin mərhələsində Tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanıs Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) – Xeyrımlı (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırıblar.

• Qərara alınıb ki, sərhəd xəttinin bu hissələrinin təsviri koordinatları yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirilməsi nəzərə alınmaqla tərtib edilsin və bu, Tərəflər arasında 15 may 2024-cü il müddətinədək müvafiq Protokol-təsvirlə sənədləşdirilərək razılaşdırılmalı və imzalanmalıdır.

• Razılaşdırılıb ki, Tərəflər sərhəd xəttinin razılaşdırılmış hissələrində öz sərhəd xidmətlərinin eyni vaxtda və paralel yerləşdirilməsi üçün tədbirlər görmək məqsədilə öz hökumətlərinə müraciət edəcəklər. Həmçinin razılaşdırılıb ki, delimitasiya prosesi tam başa çatana qədər Protokol-təsvirdə göstərilən sərhəd xəttinin hissələri delimitasiya edilmiş hesab olunsun.

• Paralel olaraq, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın Birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin 1 iyul 2024-cü il müddətinədək başa çatdırılması və dövlətdaxili razılaşdırmalar prosesinə və müvafiq qaydada Tərəflərin dövlətlərinin qanunvericiliyinin tələblərinə uyğun olaraq Əsasnamənin təsdiqinə başlamaq barədə razılığa gəlinib.



• Tərəflər razılaşıblar ki, onlar delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Tərəflər, həmçinin həmin baza prinsipini Əsasnamə layihəsində təsbit etmək barədə razılığa gəliblər (əgər gələcəkdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişdə başqa cür qərara gəlinərsə, o zaman Əsasnamənin müvafiq bəndi bu Sazişlə müəyyənləşdirilmiş prinsiplərə uyğunlaşdırılacaq).

• Tərəflər Əsasnaməni təsdiq etdikdən sonra növbəliliyi razılaşdırmaq və sərhədin bütün digər hissələrinin, o cümlədən anklav və eksklav məsələləri üzrə delimitasiya prosesini davam etdirmək barədə razılığa gəliblər.

Görüşün nəticəsində protokol imzalanmışdır. Növbəti görüşün keçirilməsi tarixinin və yerinin işçi qaydada razılaşdırılması qərara alınıb.

**AZƏRTAC**

# Təxribatlar bumeranqa çevrilir

**Aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında keçirilən görüşdə İrəvana hərbi dəstəyin göstərilməsi məsələsinin də müzakirə olunması, o cümlədən, hərbi əməkdaşlığı nəzərdə tutan 20 bənddən ibarət sazişin imzalanması gündəmin ən aktual məsələlərindən biri olaraq qalmaqdadır. Azərbaycan mediası bununla bağlı araşdırma apararaq, ortaya ciddi sübutlar qoyub. Brüsseldə razılaşdırılmış sənədin fotosu mediada yayılıb. Bundan sonra ABŞ tərəfi sənədi "sırf dezinformasiya" adlandırıb. Dövlət Departamenti görüş zamanı təhlükəsizlik məsələlərinin gündəmdə olmadığını iddia edib.**

Açıqlanan sənəddə Rusiyanın narahatlığına səbəb olan müddəalar da yer alıb. Belə ki, sazişdə Avropa İttifaqı Ermənistan hökumətinin Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti qoşunlarının "Zvartnos" beynəlxalq hava limanından, Ermənistan–İran sərhədindən və bütün digər sərhəd məntəqələrindən çıxarılması barədə qərarını dəstəklədiyini bildirib. Zənnimizcə, Aİ-nin bilavasitə dəstəyi ilə Nikol Paşinyan hökumətinin bu qərarı Rusiyanın Ermənistan ərazisində mövqeyini zəiflətmək üçün ilk konkret, nəzərəçarpacaq addımıdır və görünür, buna görə də Brüssel razılaşmaları kontekstində xüsusilə seçilir. Rusiya sərhəd qoşunlarının beynəlxalq hava



limanı və İranla sərhəd kimi mühüm mövqelərdən çıxarılması regionda Avroatlantik təsirin genişlənməsinə şərait yaradacaq ki, bu da postsovet məkanında Moskvanın təsirinin azaldılmasına qarşı daha geniş strategiyanın bir hissəsi kimi qiymətləndirilə bilər. Bu, həm də Aİ-nin Cənubi Qafqaz regionunda öz mövqelərini möhkəmləndirməyə çalışdığı daha böyük geosiyasi oyun kontekstinə tamamilə uyğun gəlir. Məlum qərarın Ermənistanın Rusiyanın təsirindən tamamilə çıxması üçün tramplin rolu oynayacağını iddia etmək mümkündür.

Üzə çıxarılmış sənəddə qeyd olunur ki, Aİ və Ermənistan Rusiyanın Hayastandakı hərbi obyektlərinin statusunu onların 2044-cü ilə qədər mövcudluğunu nəzərdə tutan hazırkı sazişi nəzərə alaraq nəzərdən keçirib. Bununla əlaqədar onu demək olar ki, son vaxtlar Brüssel və İrəvanın Ermənistan ərazisindəki Rusiya hərbi bazasının gələcəyi ilə bağlı müxtəlif variantları kuluarlarda fəal şəkildə müzakirə etdiklərinə dair məlumatlar yayılırdı. İndi bu məsələnin 5 aprel görüşü ilə bağlı sənəddə öz əksini tapması təsadüfi hesab oluna bilməz. Rusiya hərbi kontingentinin Hayastandan çıxarılması Aİ və ABŞ-nin Ermənistan siyasətində strateji məqsədlərindən biridir. Ehtimal etmək olar ki, bununla bağlı müxtəlif ssenarilər, o cümlədən, 102-ci rus bazasının ətrafında gərginlik ocağının yaradılması nəzərdən keçirilir. Beləliklə, aydın olur ki, Rusiya hərbi bazası və rus hərbi qulluqçularının Ermənistanda olması ilə bağlı məsələlərin aktiv müzakirəsi 102-ci bazanın mövcudluğu haqqında sazişin müddətinin başa çatmasından xeyli əvvəl başlayıb. Aİ və Ermənistan İrəvanın Rusiya hərbi texnikası və texnologiyasından, həmçinin rus hərbi təhsilindən və təlimdən asılılığının azaldılması zərurətini də müzakirə ediblər.

Mediada yayılmış sənədlə bağlı Moskvanın mövqeyi özünü çox gözlətməyib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova aprelin 18-də keçirdiyi brifinqdə deyib ki, ölkəsi Brüssel danışıqları barədə mətbuata sızan məlumatlarla bağlı Ermənistandan dəqiq reaksiya gözləyir. Diplomat bildirib ki, İrəvan daha əvvəl Qərb dövlətləri ilə əməkdaşlığın üçüncü ölkələrə qarşı yönəlmədiyinə əmin edib: "Bu faktorları nəzərə alaraq, Ermənistan hakimiyyətindən yayılan məlumatlara aydın reaksiya, idealda isə bunun inkar edilməsini gözləyirik. Bütün hallarda söz rəsmi İrəvanındır".

Onun sözlərinə görə, qərblilər Cənubi Qafqazdakı qonşuları arasında qarşıdurma yaratmağa çalışırlar və Ermənistana yalnız yeni böyük yanğını alovlandırmaq istədikləri alət rolu verilir: "Brüsseldəki görüş zamanı, həqiqətən də, İrəvana Rusiya bazasının və sərhədçilərinin Qərb mütəxəssisləri ilə dəyişdirilməsi, eləcə də Ermənistan Respublikasında kritik infrastrukturun istiqamətinin dəyişdirilməsi ilə bağlı planların qoyulduğu ortaya çıxsa, Moskva təəccüblənməyəcək".

Onu da qeyd edək ki, yayılmış sənəd Ermənistanda da müzakirələrə yol açıb. "Birlikdə" adlanan erməni hərəkatının koordinatoru Aram Sarkisyan mətbuata sızan informasiyalara hakimiyyətin cavab vermədiyindən narazılığını bildirib. O, Ermənistan hakimiyyətinin son dərəcə təhlükəli oyun oynadığını qeyd edib. Brüsseldəki razılaşmaların Rusiya və İrana qarşı yönəldiyini vurğulayıb. Əlavə edib ki, bunu həm Tehran, həm də Moskva birbaşa və ya dolayısı ilə açıqlayır. O, Paşinyan iqtidarının bu təhlükəli gedişinin haylara baha başa gələcəyini də vurğulayıb.

Nəhayət, sənədin yayılmasından təxminən iki günə yaxın vaxt keçəndən sonra Ermənistan xarici işlər nazirliyi dilə gəlib. Nazirliyin mətbuat katibi Ani Badalyan Brüsseldə keçirilən üçtərəfli görüşdə heç bir gizli gündəliyin olmadığını bildirib. "Əslində, Brüssel görüşü Ermənistanın dayanıqlılığı və iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı idi. Bunun ətrafında reallığa uyğun gəlməyən lüzumsuz hay-küy yarandı. Azərbaycan mətbuatında dərc olunan kağız saxtadır, belə məsələlər Brüssel görüşünün gündəliyində olmayıb. Brüsseldə müzakirə edilən məsələlərin bütün gündəliyi görüşdən sonra yayılan birgə press-relizdə öz əksini tapıb. Gündəlik xaricində edilən hər hansı açıqlama yalandır. Brüssel prosesi tam şəffaf olub və bundan sonra da belə olacaq", – deyə Ani Badalyan rəsmi İrəvanı, necə deyərlər, sudan quru çıxarmağa cəhd edib. Amma onun bu cəhdi uğursuz olub.

Siyasi analitik Armen Çibuxçyan Brüssel görüşü və M.Zaxarovanın bununla bağlı açıqlamalarını şərh edərkən deyib ki, əslində, görüşün görünən və görünməyən hissəsi olub: "Biz bunu təbii ki, xarici işlər nazirliyi tərəfindən rəsmi şəkildə təkzib etmişik. Ani Badalyan yayılan məlumatın absurd olduğunu və yalnız iqtisadi məsələlərin müzakirə olunduğunu bildirib. Bununla belə, görüşün qapalı hissəsi də olub".

Onun sözlərinə görə, biz görüşdən sonra mətbuat konfransının keçirilmədiyini gördük: "Mən bilmirəm, sizin məlumatınız var, ya yox, Avropa Sülh Fondundan səhra hospitallarının yaradılması üçün 10 milyon avro ayrılıb və sair (qeyd edək ki, sənədə əsasən, mobil səhra düşərgəsinin, o cümlədən, tibb müəssisəsinin, habelə əlaqədar xidmət və obyektlərin yaradılması maliyyələşdiriləcək – S.H.). Bu, dolayı hərbi yardımdır. Yəni, hücum deyil, müdafiə xarakterli hərbi yardım məntiqinə uyğundur. Nə baş verdiyini başa düşürsünüz? Avropa Sülh Fondu Ermənistan üçün ən sadədən işə başlayır. Bundan əlavə, hərbi yardım məntiqində də eyni hal yaşanır. Deyək ki, ilk hərbi yardım ciddi silahlar olmadan döyüş meydanındakı vəziyyəti dəyişə bilməyən "Bastion" zirehli texnikasının tədarükündən başlayıb".

A.Çibuxçyan daha sonra deyib: "Başqa sözlə, bunun fonunda, təbii ki, güman edirəm və şəxsi fikrimcə, Ermənistanla hansısa gizli danışıqlar aparılıb. Gizli danışıqlar olub. Sadəcə, onun afişası olmayıb. Avropa Sülh Fondu yardım edirsə, deməli, Paşinyan onlara nəsə vəd edib. Güman edirəm ki, Mariya Zaxarovanın Ermənistanın Brüsseldə nə razılaşdırıldığını izah etməli olması barədə bəyanatı o deməkdir ki, rus qoşunlarının Ermənistandan çıxarılması ilə bağlı razılaşma olub".

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə** bildirib ki, Brüssel görüşü ilə bağlı yayılan sənəd Azərbaycanda böyük narahatlıq doğurub. Onun sözlərinə görə, səsləndirilən bəyanatlar və üçtərəfli görüşdən sonra mətbuata verilən açıqlamalar ziddiyyət təşkil edir: "Azərbaycan və Ermənistan sülh və dövlətlərarası münasibətlərin qurulması üzərində iş aparırlar. Ölkəmiz digər dövlətlərdən, beynəlxalq təşkilatlardan prosesə dəstək vermələrini gözləyir. Çox təəssüf ki, bunun əksinə olaraq, bəzi ölkələr Ermənistanı silahlandırmaqla onu Azərbaycan əleyhinə qaldırmağa çalışırlar. Bəzi ölkələr isə, bu məsələdə ziddiyyətli bəyanatlar verirlər. Azərbaycan məsələni diqqətdə saxlayacaq və özünün ərazi bütövlüyünə, suverenliyinə yönələn bütün məsələlərə kəskin reaksiya verəcək".



Deputat vurğulayıb ki, Ermənistanın silahlandırılması, Qərbdəki müəyyən dairələrin təsiri altına salınması İrəvanın Azərbaycana və qonşu dövlətlərə qarşı ərazi iddiası iştahını daha da artıra bilər: "ABŞ tərəfinin rəsmi bəyanatının həqiqət olduğuna inanmaq istərdik. Çox istərdik ki, Vaşinqton verdiyi bəyanata uyğun olaraq, bundan sonra Ermənistana ancaq humanitar yardım və ikitərəfli münasibətlərdən irəli gələn məsələlərlə bağlı kömək göstərsin. Bu gün Ermənistanın silahlandırılması, müəyyən dairələrin təsiri altına salınması bu ölkənin təcavüzkarlıq niyyətlərinin yenidən baş qaldırmasına səbəb ola bilər".



**Politoloq İlyas Hüseynov** isə deyib ki, Brüssel görüşündə Ermənistana hərbi dəstəyin göstərilməsinin müzakirəsi əvəlcədən ehtimal edilirdi. Onun sözlərinə görə, Ermənistana hərbi və təhlükəsizlik sahəsində dəstəyin verilməsi ilə bağlı yayılan 20 bənddən ibarət sənəd regional təhlükəsizliyə təhdidləri artıran, sülhə və əmin-amanlığa zərbə vuran məqamdır. Eyni zamanda, Ermənistanın silahlandırılmasına cəhdlərin edilməsi revanşizm əhval-ruhiyyəsini gücləndirən amildir: "Burada yeni geosiyasi konfiqurasiyaya qarşı fəaliyyət özünü göstərməkdədir. Yeni reallıqlar müstəvisində Azərbaycanın sülhə verdiyi töhfələr nəzərə alınmır, əksinə gərginliyin yaradılması niyyəti ortaya qoyulur".

İ.Hüseynov bildirib ki, qlobal müharibələr fonunda həm də Azərbaycanın əsas strateji müttəfiqi Türkiyəyə qarşı da analoji qərəzli münasibət sergilənməkdədir: "Bu, qəbuledilən deyil. Biz uzun illərdir ki, Qərbin türkofob münasibətini görmüşük. Ermənistanın hazırda Fransa başda olmaqla Qərb və Hindistan tərəfindən silahlandırılması da deməyə əsas verir ki, bir sıra güc mərkəzləri regional təhlükəsizliyə töhfə vermək adı altında bölgəmizə müdaxilə etmək, özlərini arbitr kimi danışıqlar masasında görmək istəyirlər. Onların bu pozucu və destruktiv fəaliyyətləri son vaxtlar ardıcıl xarakter almaqdadır".

Beləliklə, aydın olur ki, Qərbdəki müəyyən dairələrin əsas məqsədi Ermənistanı silahlandıraraq bölgədə yeni münaqişə ocağı körükləməkdir. Ancaq onların təxribatının baş tutmayacağı, əksinə bumeranq effekti verərək Ermənistana yönələcəyi birmənalıdır. Həmin dairələr regionda yaranmış geosiyasi reallıqları, getdikcə güclənən Azərbaycan–Türkiyə amilini gec-tez nəzərə almalı olacaqlar. Bu tandem istənilən təxribatlara qarşı durmağa qadirdir.

*Səxavət HƏMİD*

*XQ*

# Lemkin institutu da "erməni xəstəliyi"nə yoluxub

## *Bu qeyri-hökumət təşkilatı İrəvanın yalanlarını tirajlayır*

**Ermənilərin "soyqırımı" nağılı hamıya məlumdur. Hindistan səhralarından Avrasiyanın çöllərinə yayılan bu etnosun nümayəndələri hər fürsət düşəndə özünü böyük güclərin "qurbanı" kimi təqdim etməyə can atırlar. Geosiyasi maraqların alətinə çevrilmiş bu üzdəniraq soyqırımı sərsəmlərini müdafiə edən beynəlxalq təşkilatlar da var. Belə qurumlardan biri də Lemkin adına Soyqırımın Qarşısının Alınması İnstitutudur. ABŞ-də fəaliyyət göstərən bu institut zaman-zaman Azərbaycana qarşı ittihamlar irəli sürməyə çalışır, ermənilərin yalan dəyirmanına su tökür. Bəs kimdir bu Lemkin, niyə bu institut erməni yalanlarının yaxasından bərk-bərk yapışıb?**

2021-ci ildə təsis olunan institut yəhudi-ukrayna əsilli polşalı hüquqşünas, soyqırımı haqqında hüquqi doktrina və bu cinayətə görə cəzanın hüquqi əsaslarını hazırlayan Rafael Lemkinin (1900-1959) adını daşıyır. İnstitutun həmtəsisçiləri Kin Kolleci və Stokton Universitetinin professoru Eliza fon Coden-Forgey və beynəlxalq hüquq professoru, İndiana Universitetinin məzunu İrene Viktoriya Massiminodur. Fon Coden-Forgeyin erməni sevgisi də məlumdur. O, tez-tez Ermənistana səfər edir, erməni alimləri və diaspor nümayəndələri ilə görüşür.




İnstitutun digər təsisçi həmsədri İrene Viktoriya Massimino argentinalıdır və insan hüquqları üzrə hüquqşünasdır. İ.Massimino Ermənistan və ölkəsindəki erməni diasporu ilə də isti münasibətlərə malikdir. Məsələn, 2021-ci ilin iyununda Ermənistan milli şurası və Argentinanın erməni vəkillər kollegiyası 2020-ci il müharibəsi zamanı "Azərbaycan Ordusunun erməni xalqına qarşı törətdiyi iddia edilən hərbi cinayətləri və insanlığa qarşı cinayətləri" araşdırmaq üçün Argentina Federal Məhkəməsinə şikayət təqdim etmişdi. Həmin şikayəti dəstəkləyən və hazırlayanlar arasında Lemkin İnstitutunun təsisçisi İ.Massimino da vardı.

ABŞ-də təsis olunan bu qeyri-hökumət təşkilatı rəsmi saytında qeyd edib ki, onun missiyası soyqırımının qarşısının alınması vasitələri ilə bütün dünyada əhalinin geniş təbəqələrini birləşdirməkdir. Amma bu missiya çətiri altında Lemkin institutu fəaliyyət göstərdiyi ölkənin geosiyasi maraqlarına qulluq etdiyini dəfələrlə isbatlayıb. Axı necə düşünməyəsən ki, Ermənistanda bir nəfər də olsun azərbaycanlının olmamasına, eləcə də Azərbaycan ərazisini işğal etmiş bu dövlətin törətdiyi çoxsaylı soyqırımı aktlarına baxmayaraq, bu qeyri-hökumət təşkilatı Azərbaycanı ləkələməyə çalışır?! Üzdəniraq təşkilatın fəaliyyəti barədə açıq mənbələrdən də məlumat almaq olur ki, onun məqsədinin forması məzmuna uyğun gəlmir. Bir az araşdırma aparanda da əmin olursan ki, Lemkin institutu erməni lobbisinin okeanın o tayındakı filialı kimi fəaliyyət göstərir və erməni soyqırımı xəstəliyinin yayıcısı qismində çıxış edir.

Faktlar varmı? Əlbəttə, diqqət yetirin: 2011-ci ildən etibarən qondarma "Erməni Soyqırımı Muzey-İnstitutu" hər il Rafael Lemkin adına təhsil təqaüdü proqramı təşkil edir. Bu təqaüd beynəlxalq tələbələrə qondarma erməni soyqırımı tədqiqatları üzrə ixtisaslaşmış yerli akademik institutlarda və kitabxanalarda araşdırma aparmaq üçün bir ay müddətinə Ermənistana səfər etməyə icazə verir. Qalib namizədlər üçün əsas platforma "Erməni Soyqırımı Muzey-İnstitutu"dur. Bu, onlara qondarma erməni məsələsi və erməni soyqırımının tarixini öyrənməyə, "Erməni Soyqırımı Muzey-İnstitutu"-nun elmi fondlarında və kitabxanasında araşdırmalar aparmağa, habelə peşəkar məsləhətlər almağa və elmi tədqiqatların materialları ilə tanış olmağa imkan verir. Təqaüdün müddəti bir aydır.

Əslində, belə deməyə ələhəzrət faktlar da əsas verir. Lemkin institutu fəaliyyət göstərdiyi bütün dövr ərzində heç vaxt Ermənistanın Azərbaycana təcavüzünə münasibətini açıqlamayıb. Bundan başqa, XX əsrin ən dəhşətli soyqırımılarından biri olan Xocalı qətliamına indiyədək reaksiya göstərməyib. 1915-ci ildə uydurma erməni soyqırımına vay-şivən qaldıran bu təşkilat ermənilərin heç də uzaq olmayan tarixdə – 1988-ci ildə azərbaycanlıları Ermənistandakı yurd-yuvalarından didərgin salmaları faktı barədə hər hansı bəyanat səsləndirməyib. Halbuki, Lemkin institutu də gözəl bilir ki, ermənilərin azərbaycanlılara qarşı irqçi münasibəti soyqırımı xarakteri daşıyırdı. Amma yox, erməniləri "mələk", türkləri isə "qatil" kimi qələmə vermək bu təşkilatın proqramına yazılıb. Ona görə ki, kim pul verirsə, musiqini də o, sifariş edir. Lemkin institutunun da əsas sifarişçilərinin hazırda Azərbaycanda bəd əməllərinə görə həbsdə olan fırıldaqçı Ruben Vardanyan və digər fırıldaqçı Noubar Afyandır.

İnstitutun rəsmi saytında erməni əməkdaşlarının olduğunu bildirir. Məsələn, Ermənistanda və İsveçrədə böyümüş Lyusi Mirzoyan adlı erməni əməkdaşının təqdimatında institut yazır ki, o, "erməni soyqırımının kriminoloji təhlilini və onun inkarı ilə bağlı mürəkkəbliyi özündə əks etdirən əhatəli hesabat hazırlayıb". Hə, bu da sizə "tərəfsizliyin" təsdiqi. Ermənilərin türklərə qarşı, ancaq özlərinə aydın olan (əslində, bu nifrət ermənilərin milli şüuraltı dərinliklərində kök atıb) nifrətinin olduğunu gözəl bilən Lemkin institutu Türkiyə və Azərbaycana yönələn uydurma ittihamlarında belə qərəzli erməni hesabatlarından istifadə edir. Daha bir erməninin – Emili Poqosyanın təşkilat üçün çalışması da bu təşkilatın nə qədər qərəzli mövqe tutmasına aydınlıq gətirir.

Əlbəttə, qurumun saytında göstərilməyən ermənilər də var və təşkilatın son zamanlar Azərbaycan haqqında yaydığı uydurma bəyanatlarında erməni izini asanlıqla görmək olar. Məsələn, qurumun saytında Qarabağ münaqişəsinə dair yerləşdirilmiş 148 səhifəlik üzdəniraq hesabatı hazırlayan müəlliflər arasında Alisa Aleksanyan, Gevorq Novşadyan, Peter Vertanyan və Raffi Zarzaryan adlı ermənilər yer alıblar. Yəni, erməni müəlliflər hesabatı hazırlayarkən reallıqları Ermənistanın maraqlarına uyğun təhrif ediblər. Özünə və keçmişinə hörmət etməyən Lemkin institutu da bunu "alternativsiz həqiqət" kimi ictimaiyyətə sırımağa çalışır.

Son otuz ildə minlərlə insanın həyatına son qoyan iki genişmiqyaslı müharibənin günahkarı məhz işğalçı siyasət yürüdən Ermənistandır. Bunu hamı bilir, Azərbaycanın ancaq sülhsevər planlarla idarə olunduğunu, niyyətlərinin heç bir şəkildə hərbi əməliyyatlar və təcavüzkar planlarla bağlı olmadığını Lemkin İnstitutu da gözəl anlayır. Ancaq bu qurum vurğunu kobud şəkildə dəyişdirir və erməniləri şəraitin "qurbanı" kimi qələmə verməyə çalışır. Halbuki, otuz il Azərbaycan torpaqlarında işğal şəraitini məhz ermənilər yaratmışdılar. Azərbaycan, sadəcə, ədalətsizliyə, terrora və separatçılığa son qoydu.

Aydındır ki, regiondan kənarda Cənubi Qafqazın indiki sakit vəziyyəti ilə qane olmayan güc mərkəzləri var. Onlar Avrasiyada strateji mövqeyə malik Cənubi Qafqaz regionunu geosiyasi ambisiyalarına uyğun dəyişdirməyə çalışırlar. Lemkin institutu kimi qurumlar da bu mərkəzlərin əlində alətə çevriliblər. Amma ədalətin yanında möhkəm yer alan Azərbaycan belə məkrli planların reallaşmasına imkan verməyəcək və bu mənada müxtəlif siyasi dairələrin sifarişləri əsasında işləyən Lemkin institutunun fəaliyyəti də qərəzdən başqa bir şey deyil. Qərəzə də münasibət bəllidir.

*S.ELAY*

*XQ*

# Hesablama Palatası Milli Məclisə hesabat verdi



**Aprelin 19-da spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirildi. Gündəlik qəbul edildikdən sonra cari məsələlərin müzakirəsi aparıldı.**

Natiqlər Fransanın Azərbaycandakı səfirinin məsləhətləşmələr üçün geri çağırılması məsələsinə öz münasibətlərini bildirdilər. Deputatlar ikitərəfli əlaqələrdə Fransanın uzun müddət ərzində destruktiv fəaliyyət sərgilədiyini qeyd etdilər.

Müzakirələrdə, Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin ölkəmizdən çıxarılması məsələsinə də toxunuldu. Deputatlar bu prosesin ölkə Prezidenti İlham Əliyevin qətiyyətli və prinsipial siyasətinin nəticəsi olduğunu qeyd etdilər. Çıxışlarda məsələ ilə əlaqədar ABŞ-nin qeyri-obyektiv mövqeyinin təəssüf doğurduğu bildirildi.

Sonra S.Qafarova iclasın gündəliyində 14 məsələnin olduğunu dedi. Diqqətə çatdırdı ki, 1-ci məsələ Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü ildəki fəaliyyəti haqqında hesabatdır. Spiker qeyd etdi ki, Hesablama Palatasının hesabatlarının Milli Məclisdə dinlənilməsi dövlət büdcəsinin formalaşdırılması və xərclənməsi üzərində maliyyə nəzarətinin səmərəliliyini təmin etməyə yönəlib və bu sahədə parlament nəzarətinin ən mühüm istiqamətlərindən birini təşkil edir.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov palatanın 2023-cü ildəki fəaliyyəti haqqında hesabatını təqdim etdi. Bildirdi ki, 2023-cü il üzrə hesabat "Hesablama Palatası haqqında" Qanuna, "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə əsasən, beynəlxalq standartların tələbinə uyğun olaraq hazırlanıb.

Hesablama Palatasının 2023-cü ildə fəaliyyətindəki yeniliklərdən danışan palata sədri dövlət maliyyəsi sahəsində ixtisaslı kadr hazırlığını təmin etmək üçün iki universitetdə "Dövlət auditi" üzrə silsilə təlimlərin keçirilməsini, ictimai iştirakçılıq məqsədilə palatanın rəsmi səhifəsində "Audit təklif et" bölməsinin yaradılmasını və nəhayət, dövlət sektorunda şəffaflığa və hesabatlılığa töhfə vermək məqsədilə HP-nin büdcəsinin icrası və satınalmalarının hesabatının təhlil-açıqlama şəklində və ölkədə ilk dəfə bir beynəlxalq tədbirə çəkilən xərclər smetasının icrasının palatanın rəsmi səhifəsində dərc edilməsini xüsusi vurğuladı.

Palatanın strateji planının icrası haqqında məlumatları diqqətə çatdıran V.Gülməmmədov bildirdi ki, Hesablama Palatasının "2021–2025-ci illər üzrə strateji plan"ı INTOSAI-nin prinsip və təlimatları nəzərə alınmaqla hazırlanmış, burada 2 yekun və 9 aralıq nəticə müəyyənləşdirilmişdir. Strateji planda nəzərdə tutulmuş fəaliyyətlərin icrası 90 indikator – Əsas Fəaliyyət Göstəricisi (KPI) əsasında qiymətləndirilmişdir.

Palatanın fəaliyyət istiqamətləri barədə danışan sədr dedi ki, "Hesablama Palatası haqqında" Qanunun 20.5-ci maddəsinə uyğun olaraq 2023-cü ilin İş Planına il ərzində müvafiq icra hakimiyyəti orqanının təklifləri əsasında 4 yeni tədbir, deputatlar tərəfindən səsləndirilən fikirlər nəzərə alınmaqla Hesablama Palatasının üzvlərinin təklifləri əsasında audit və analitik fəaliyyət üzrə 2 yeni tədbir əlavə olunmuşdur.

2023-cü ildə Hesablama Palatasının Kollegiyası tərəfindən 41 audit və 4 analitik fəaliyyətin keçirilməsi ilə bağlı qərar qəbul edilmişdir. Nəticələrinin rəsmiləşdirilməsi 2024-cü ilə keçirilmiş 1 analitik fəaliyyət istisna olmaqla, bütün tədbirlər başa çatdırılmış və Milli Məclisə məlumat verilmişdir.

2023-cü ildə Hesablama Palatasının əsas nəzarət sahələri – əhaliyə ödənilən sosial müavinət və təqaüdlər, tibbi sığorta xərcləri, fermerlərə göstərilən dövlət dəstəyi, sosial obyektlərin tikintisi və təmiri, hüquq-mühafizə sahəsinin ayrı-ayrı istiqamətləri, dövlət satınalmaları, dövlət rüsumlarının və vergilərin formalaşması vəziyyəti olmuşdur.

Audit və analitik fəaliyyət üzrə dövlət maliyyəsinin idarə edilməsində ümumi nöqsan məbləği 1971,9 milyon manat müəyyən edilmişdir.

Hesabat ilində Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi tərəfindən 2020–2022-ci illəri əhatə edən 6 uyğunluq auditi keçirilmişdir. Ümumilikdə, idarə tərəfindən auditlərlə müəyyən edilmiş pozuntu məbləği 120 milyon manatdan çox olmuşdur. Bütün auditlər üzrə aşkarlanmış hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal edilməsi ilə əlaqədar müvafiq materiallar hüquq-mühafizə orqanlarına göndərilmişdir.

V.Gülməmmədov bildirdi ki, palatanın qanuna əsasən ikinci fəaliyyət istiqaməti büdcə layihəsi və icrasına rəylərin verilməsidir. 2023-cü ildə dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası üzrə Hesablama Palatası tərəfindən 6 rəy, yenidən baxılma ilə bağlı isə 3 rəy hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. İlk dəfə olaraq 1 rəy maliyyə auditi üzərindən verilmişdir. Rəylərin auditlər üzrə verilməsi təcrübəsinə keçid də ortamüddətli dövr üçün müəyyənləşdirilən hədəflərdən biri idi.

2023-cü ildə verilmiş rəylərlə 1350 milyon manatdan çox uyğunsuzluğun olduğu müəyyən edilmişdir. Fəaliyyət haqqında hesabatda uyğunsuzluq kimi göstərilən məbləğin, təxminən, 218 milyon manatı 2024-cü ilin dövlət büdcəsinin layihəsində nəzərə alınmaqla müvafiq qaydada düzəldilmişdir. Bu da ali audit orqanının təsirini səciyyələndirən göstəricilərdən sayıla bilər.

Hesablama Palatası 2023-cü ildə də beynəlxalq fəaliyyətinə xüsusi diqqət yetirmişdir. Hesabat ilində Hesablama Palatası fəaliyyəti qiymətləndirilən qurumdan qiymətləndirən quruma çevrilmiş və beynəlxalq təşkilatın təklifi ilə qoşulduğu layihə çərçivəsində Tacikistan Respublikası Hesablama Palatasının fəaliyyətini qiymətləndirmişdir. Qarşılıqlı əməkdaşlığın və potensialın gücləndirilməsi məqsədilə Pakistan İslam Respublikası və Koreya Respublikasının müvafiq qurumları (Ali Audit Orqanları – AAO) ilə memorandumlar imzalanmışdır. Əvvəlki ildə olduğu kimi, hesabat ilində də Hesablama Palatasının maliyyə fəaliyyəti audit edilmiş, maliyyə hesabatlarına Pakistan Ali Audit Orqanı tərəfindən müsbət rəy verilmişdir.

Spiker hesabatın yüksək səviyyədə hazırlandığını deyərək, məsələni səsə qoydu.

Səsvermə nəticəsində Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü ildə fəaliyyəti haqqında hesabatı nəzərə alındı.

S.Qafarova gündəliyin növbəti altı məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirdi. Qanun layihələri müzakirəsiz qəbul edildi.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikası qanun layihəsini (birinci oxunuşa) təqdim etdi.

Diqqətə çatdırıldı ki, qanun layihəsi Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimləyir, bu sahələrinin yaradılmasının təşkilati və hüquqi əsaslarını, süni torpaq sahələrindən istifadənin, o cümlədən, süni torpaq sahələrində tikinti aparılmasının xüsusiyyətlərini müəyyən edir. Sənəddə süni torpaq sahəsinin anlayışı və bununla bağlı ümumi tələblər öz əksini tapıb. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində torpağın və ya qruntun daşınıb tökülməsi, yaxud səpilməsi yolu ilə və ya başqa üsullardan istifadə olunmaqla yaradılan torpaq sahəsi süni torpaq sahəsi olaraq qeyd edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Venesiya Biennalesində Azərbaycan pavilyonu



**Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyinin və Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə Venesiya Biennalesində Azərbaycan pavilyonunun açılışı olub.**



AZƏRTAC xəbər verir ki, noyabrın 24-dək davam edəcək 60-cı Venesiya Biennalesi "Əcnəbilər hər yerdədir" ("Foreigners Everywhere") şüarı altında keçirilir.

Azərbaycan pavilyonu Venesiyada XVI əsrin memarlıq abidələrindən olan Campo della Tanada yerləşir və "Xəzərdən Çəhrayı Planetə. Mən buradayam" ("From Caspian to Pink Planet: I Am Here") mövzusunda təşkil olunaraq, biennalenin şüarını özündə əks etdirir.

Pavilyonun açılışında çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ötən müddətdə Azərbaycan rəssamlarına fond tərəfindən göstərilən dəstək layihələrini xatırladıb. Bildirib ki, Heydər Əliyev Fondu, həmçinin Venesiya Biennalesində Azərbaycanın pavilyonlarının ərsəyə gəlməsində iştirak edir.

Anar Ələkbərov pavilyonumuzun yaradılmasında iştirak edənlərə, o cümlədən, layihənin kuratoru – müasir incəsənət sahəsi üzrə tənqidçi, sənətşünaslıq professoru, 53-cü Venesiya Biennalesində İtaliya pavilyonunun kuratoru olmuş Luka Beatrisə, Azərbaycanın Mədəniyyət Nazirliyinə, həmçinin Azərbaycanın İtaliyadakı səfirliyinə təşəkkürünü bildirib.

Venesiya sərgisində Azərbaycan pavilyonunun kuratoru Luka Beatris isə Azərbaycanın müasir memarlığının tarixlə dialoqda olduğunu, incəsənətimizin isə gələcəyə yönələn münasibətin ən sadiq güzgüsü olduğunu bildirib. Luka Beatris tədbir iştirakçılarını qədim ölkəmizdəki mədəni və bədii coşqunu anlamaq üçün Bakıya səfər etməyə çağırıb.

Sonra qonaqlar Azərbaycan pavilyonu ilə tanış olublar.

Pavilyonumuzu ziyarət edənlər arasında BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Venesiya Biennalesində təmsil olunan Birləşmiş Ərəb Əmirliklərinin mədəniyyət naziri Salem bin Xalid Al Qassimi də olub.

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Venesiya Biennalesi çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin mədəniyyət naziri Salem bin Xalid Al Qassimi və digər ölkələrdən olan həmkarları ilə görüşüb.

Ölkəmiz müasir incəsənət sahəsində dünyanın məşhur platformalarından olan Venesiya Biennalesində 2007-ci ildən iştirak edir. 60-cı Venesiya Biennalesindəki Azərbaycan pavilyonunda Əməkdar rəssamlar İrina Eldarova, Rəşad Ələkbərov, rəssam Vüsalə Ağaraziyevanın əsərlərinin zəngin palitrası vasitəsilə əcnəbilik mövzusu tədqiq edilir, həmin mövzunun Azərbaycan üçün aktuallığı diqqətə çatdırılır.

**Cəfər Cabbarlı – 125**

# Ədəbi dühanın əbədi şöhrəti

## *Teatr muzeyində yubiley mərasimi*





**Azərbaycan Dövlət Teatr Muzeyi və Cəfər Cabbarlının ev muzeyi Cəfər Cabbarlının 125 illiyinə həsr olunmuş yubiley mərasimi keçirib.**

Toplantını giriş sözü ilə açan Teatr muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova Cəfər Cabbarlı yaradıcılığından, onun Azərbaycan mədəniyyətinə verdiyi misilsiz töhfələrdən söz açıb. Sonra dramaturqun həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş olunub.

Teatr muzeyinin elmi-kütləvi işlər şöbəsinin müdiri Ümidə Hacıyeva C.Cabbarlının zəngin ədəbi irsindən, pyeslərinin səhnə təcəssümündən danışıb. "Cəfər Cabbarlı mükafatı"nın komissiya üzvü, Xalq artisti Mərahim Fərzəlibəyov, AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Tahirə Məmməd, Əlyazmalar İnstitutunun professoru Tahirə Həsənzadə, Milli Konservatoriyanın dosenti Firudin Qurbansoy dramaturqun çoxyönlü ədəbi-bədii yaradıcılığından, milli mədəniyyətimizin inkişafına göstərdiyi xidmətlərdən danışıblar.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının artisti Məsmə Ağaverdiyeva ədibin "Ey, dan ulduzu", Bakı Bələdiyyə Teatrının aktyoru Toğrul Rza "Məhkum Şərq" və "Azərbaycan bayrağı" şeirlərini səsləndiriblər. Əməkdar artist Rəşad İlyasov isə C.Cabbarlının "Azad bir quşdum" mahnısını ifa edib.

Böyük dramaturqun əsərlərinin motivləri əsasında hazırlanan səhnələr mərasimə xüsusi rəng qatıb. Tədbirdə ədibin yaradıcılığını əks etdirən sərgi nümayiş olunub.

Sonda Cəfər Cabbarlının ev muzeyinin direktoru Qəmər Seyfəddinqızı Teatr Muzeyinin kollektivinə, alim və sənətkarlara ölməz sənətkarın irsinə verdikləri yüksək dəyərə görə minnətdarlığını bildirib.

**R.QURBANLI**
**XQ**

# Sağlam həyat tərzi etibarlı gələcəyə aparır





**Aprelin 19-da Naxçıvan şəhərində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC arasında imzalanmış tədbirlər planına müvafiq olaraq "Sağlam həyat tərzi etibarlı gələcəyin təminatıdır" mövzusunda tədbir keçirilib.**

Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli mövzunun əhəmiyyətindən bəhs edib. O, Naxçıvan MR-də narkomaniyaya qarşı mübarizə ilə bağlı həyata keçirilən maarifləndirmə tədbirləri haqqında da məlumat verib.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Muxtar Respublikanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, NDU-nun rektoru Elbrus İsayev, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov narkomaniyanın dünyanı ciddi şəkildə narahat edən problem olmasından, müasir dövrdə gəncləri zərərli vərdişlərdən qorumağın mühüm çağırış olmasından, narkotik maddələrin insan sağlamlığına vurduğu zərərdən və törətdiyi fəsadlardan ətraflı danışıblar.

**S.HƏSƏNOV**
**XQ**

**Naxçıvan**

# Lavrovun anti-Ermənistan demarşları

*Rusiya XİN rəhbəri ölkəsinin İrəvana növbəti xəbərdarlığını çatdırdı*

**Rusiyanın Xarici İşlər naziri yenə Ermənistanı, yumşaq desək, danlayıb. Ancaq budəfəki danlağın daha geniş məzmun daşıdığını nəzərə alsaq, Kremlin baş diplomatının dediklərini, müəyyən mənada, xəbərdarlıq kimi də qiymətləndirə bilərik.**



Əslində, Lavrov heç də yeni fikirlər səsləndirmir. Hərçənd, onun yerli mediaya müsahibəsində bildirdikləri Ermənistana Cənubi Qafqaz müstəvisindən kənar məqamların yada salınması fonunda müqayisəli yanaşma təsiri bağışlayır. Məsələn, ali rütbəli diplomat rəsmi İrəvana və Moldova rəhbərliyinə xəbərdarlıq etməklə, onların hər ikisinin eyni mərkəzdən idarə olunduqlarını xatırladır. Mərkəz isə Avropa İttifaqıdır. Lavrov fikrini qurumun qeyri-səmimi yanaşmasındakı məqamlardan söz açmaqla əsaslandırır və Avropa İttifaqı müstəvisində səslənmiş bəyanatı diqqətə çatdırır: "Sanduya (Maya Sandu. Moldova Prezidenti-red.), Ermənistanı harasa aparmaq istəyənlərə Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Jozep Borrellin bəyanatını xatırlatmaq lazımdır. Həmin bəyanatda Borrell avropalıları müharibəni davam etdirməyə şirnikləndirir və bildirir ki, onlar Rusiya ilə Ukraynaya görə deyil, özləri üçün savaşırlar. Bunun ardınca isə Zelenski (Ukrayna Prezidenti – red.) bildirdi ki, "Onlar (Avropa dövlətləri – red.) Ukraynaya görə vuruşmurlar, öz maraqları uğrunda vuruşurlar. Qoy, indi Qərbin əsarətində olanlarda aydınlanma tez baş versin".

Moldovanı bir kənara qoyaq. Çünki Prezident Sandunun hansı mövqe tutmasının Azərbaycana heç bir dəxli yoxdur. Ermənistana gəlincə, onun Qərbə yuvarlanmasındakı xətt birbaşa ölkəmizlə bağlıdır. Söhbət avantürizm xəttindən və Azərbaycanla sülhdən uzaqlaşmaqdan gedir. Mövcud prosesdə Bakını və Moskvanı beynəlxalq aləmdə eyni cəbhədə göstərmək tendensiyası var. Həmin tendensiya isə regionda sülhə və sabitliyə ciddi təhdid mahiyyəti daşıyır.

*

Bəli, vurğuladığımız kimi, Lavrovun dilə gətirdikləri onun əvvəl dediklərinin təkrarıdır. Bu baxımdan başqa məqamdan söz açaq. Rəsmi İrəvanın təmsilçiləri bütün beynəlxalq platformalarda, eləcə də yerli auditoriyaya hesablanmış çıxışlarında bildirirlər ki, Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistanın maraqlarını müdafiə etməyib, yaxud etmək istəməyib. Kremlin baş diplomatı isə 2022-ci ilin noyabrında KTMT-nin İrəvanda keçirilmiş zirvə görüşünü yada salır və deyir ki, həmin toplantının XİN rəhbərləri səviyyəsində reallaşmış iclasında bir sənəd razılaşdırılmışdı. Sözügedən sənəddə sərhədin mühafizəsi üçün Ermənistana əlavə silahların verilməsi, xüsusi təlimlərin keçirilməsi və KTMT missiyasının sərhəddə yerləşdirilməsi əksini tapmışdı: "Bu, faktdır. Lakin ertəsi günü sammiti açan Ermənistanın baş naziri dedi ki, konsensus alınmayıb".

Nə üçün razılıq olmadı, Lavrov müsahibəsində bu məsələyə də toxunub. O bildirib ki, rəsmi İrəvan KTMT-ni deyil, Avropa İttifaqını üstün tutdu. Daha dəqiq desək, qurumun hazırda Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində fəaliyyət göstərən mülki müşahidə missiyasını. Rusiyanın XİN rəhbəri həmin missiyanın iki aylığa gələcəyinin vəd edilməsinə rəğmən, indi müddətsiz olaraq bölgədə yerləşdirildiyini vurğulayıb. Yada salaq ki, Lavrov hələ 2022-ci ildə, yeni Aİ-nin müşahidəçilərinin regiona gələcəyi ilə bağlı xəbər yayılanda, onları "Cənubi Qafqazda əlavə qıcıqlandırıcılar" adlandırmışdı. Missiyanın ötən müddətdəki fəaliyyəti məsələsində Ermənistan rəhbərliyinin tutduğu mövqe rusiyalı diplomatın fikrində yanılmadığının təsdiqidir. İndi isə Lavrov bir müddət əvvəl bildirdiyi kimi, deyir ki, müşahidəçilərin tərkibində kanadalılar var: "Hətta NATO-nun digər üzvlərini cəlb etmək istəyirlər. Bu, artıq Avropa İttifaqı yox, NATO missiyası olacaq".

*

S.Lavrov Ermənistanın KTMT-nin ünvanına səsləndirdiyi ittihamlara cavab verərək, bir maraqlı məqama da toxunub. Yeri gəlmişkən, haqqında danışacağımız məqam KTMT-nin sözügedən İrəvan sammiti zamanı da gündəmə gəlmişdi. O zaman Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirmişdi ki, Azərbaycanla Ermənistan arasında sərhədlər müəyyənləşməyindən, KTMT-nin məsuliyyət zonası dəqiq deyil. İndi Rusiya XİN rəhbərinin KTMT müstəvisində dilə gətirdiyi yenilik də elə budur. O deyir ki, Ermənistan rəhbərliyi hələ ölkə sərhədlərinin müəyyənləşdirilməsini başa çatdırmayıb və mövcud şəraitdə KTMT-nin Ermənistandakı məsuliyyət zonasının göstərilməsinin zəruriliyindən danışmaq tezdir: "Ona görə "KTMT öz məsuliyyət zonasını müəyyən etməlidir" (bu, Ermənistan rəhbərliyinin tələbi kimi səslənir – red.) deməzdən öncə Ermənistanın sərhədləri müəyyən olunmalıdır. Delimitasiyanı sona çatdırmaq lazımdır ki, indi Ermənistan rəhbərliyi bununla məşğul olur".

Ermənistan hakimiyyəti Lavrovun qeyd etdiyi məsələ ilə necə məşğuldur, hamıya yaxşı bəllidir. İrəvanın mövcud istiqamətdə spekulyasiyaları var. Belə təəssürat yaranır ki, ölkənin delimitasiya və demarkasiya prosesini başa çatdırmaq və Azərbaycanla sülh müqaviləsi imzalamaq niyyəti yoxdur. Bu niyyətin olmaması durumunda Rusiyaya və KTMT-yə ünvanlanmış ittihamlarl görürük. Deməli, Ermənistan sərhədlərin qeyri-müəyyənliyi amilini də anti-Rusiya təbliğatı baxımından alətə çevirməkdədir.

*

Rəsmi İrəvanın Rusiya əleyhinə təbliğatından və Moskvanı gözdən salmaq niyyətindən söz düşmüşkən, S.Lavrovun müsahibəsindəki xəbərdarlıq məntiqinin digər seqmentinə keçid alaq. Rusiya XİN rəhbərinin bu baxımdan dilə gətirdikləri, obrazlı ifadə etsək, Ermənistanın üstündə oturduğu budağı kəsməsinə oxşayır. Əslində, Lavrov bir budağın kəsilməsi ilə ağacın tamamilə qırılmasının mümkünlüyünü vurğulayır. Söhbət İrəvanın Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqındakı təmsilçiliyindən gedir. Lavrov mövcud təmsilçiliyin Ermənistana gətirdiyi faydadan söz açır. Həqiqətən, sual yaranır: rəsmi İrəvan KTMT ilə münasibətləri korlayıb, Aİ ilə əlaqələri normal saxlamağamı ümid bəsləyir? Görəsən, bu, nə dərəcədə mümkündür?

Qeyd edək ki, Ermənistan bu il rotasiya qaydasında Aİ-yə sədrliyə başlayıb. Məsələ, qurumun dövlət başçılarının ötən ilin dekabrında Sankt-Peterburqda keçirilmiş zirvə toplantısında razılaşıb. Həmin toplantıda baş nazir Nikol Paşinyanın çıxışı isə qəribə təsir bağışlamışdı. Nikol Aİ-nin siyasi məqsədlər naminə alətə çevrilməməsinin vacibliyindən söz açmışdı. Bu, o demək idi ki, Ermənistan siyasi baxımdan Rusiyaya qarşı hər şeyi edəcək, amma qarşılığında ona iqtisadi planda heç bir təsir və ya təzyiq göstərilməməlidir.

Əlbəttə, Paşinyan çox yaxşı bilir ki, onun və komandasının Ermənistanın sürətli iqtisadi inkişafı məsələsində bəh-bəhlə təbliğ etdikləri göstəricilərdə böyük pay sahibi Rusiyaya məxsusdur. Daha dəqiq desək, ölkənin inkişafı bilavasitə Rusiyadan asılıdır. Lavrov müsahibəsində mövcud məqamı məhz bu səbəbdən qabardır. Məsələn, XİN başçısı deyir ki, Aİ-də proporsional olaraq Ermənistan ən çox qazanandır. Ardınca konkret rəqəmləri açıqlayır. O, Ermənistan iqtisadiyyatının 35 faizinin Aİ-də iştirak hesabına formalaşdığını vurğulayır. "2023-cü ildə Ermənistanın ticarət dövriyyəsi 20 milyard dollar təşkil edib və bunun 37 faizi Aİ-nin, 13 faizi Avropa İttifaqının, 3 faizi ABŞ-nin payına düşüb. Ermənistan kiçik ölkə olmaqla, Aİ-yə digər ölkələrə nisbətən daha az töhfə verir. O cümlədən, maliyyə töhfələri azdır. Ancaq, eyni zamanda, qərarlar qəbul edildikdə, səs verəndə Rusiya Federasiyası da daxil olmaqla, hamı ilə tamamilə bərabər hüquqlara malikdir... "Qazprom" Ermənistana 1 min kubmetr qazı 177 dollar satır. Qərbdə buna iki-üç dəfə artıq pul ödəyirlər. Əgər Ermənistanı öz qazı ilə qızdırmaq istəyirlərsə, onda bilmirəm necə olacaq... Atom elektrik stansiyasını bağlayıb, onu modul reaktorlarla əvəz etmək istəyirlərsə... Ümid edirəm ki, ermənilər "Metsamor" Atom Elektrik Stansiyasında hasil edilən enerjinin əhəmiyyətini anlayırlar", – deyən Lavrov əlavə edib ki, ötən illər ərzində Ermənistanda dəmir yolu nəqliyyatındakı sərnişindaşımalarda güzəştli tariflər tətbiq olunub: "Ona görə də Rusiya Federasiyası və Avrasiya İqtisadi İttifaqı tərəfindən kiçik Ermənistanın istismarı mənzərəsini yaratmağa çalışanlar bu barədə düşünməlidirlər".

*

Sonda əvvəldə səsləndirdiyimiz fikrə qayıdaq. Bəli, S.Lavrovun şəxsində Rusiya Ermənistana növbəti xəbərdarlığını çatdırır. Sözsüz ki, xəbərdarlıqların sayı-hesabı yoxdur. Bu mənada demək olmaz ki, rəsmi İrəvan nəticə çıxaracaq. Həm də ona görə nəticə çıxarmayacaq ki, baş nazir Nikol Paşinyan administrasiyası bu il aprelin 5-də ABŞ – Avropa İttifaqı – Ermənistan formatı çərçivəsində əldə edilmiş razılaşmanın yardım motivini ehkamlaşdırıb illüziyaya qapılmaqdadır. Nəzərə alaq ki, həmin razılaşmadakı ayrı-ayrı müddəalar İrəvanın həm də Rusiyaya qarşı çıxması üçün sipər kimi formalaşdırmağa hesablanıb. Lavrov müsahibəsində erməni siperinin zəifliyini əsaslandırdı. Özü də kifayət qədər dolğun şəkildə.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Xalqımızın sülh məramı qalib gəlib

*Bəs bəzi məramsızlar zəfərlərimizə niyə yas tuturlar?*

**Bölgəmizdə yeni gündəm yaşanır: Rusiya hərbçiləri Qarabağ torpağını nəzərdə tutulduğu vaxtdan il yarım əvvəl tərk etməyə başlayıblar. Nə baş verir? Kim inanardı ki, ruslar Qarabağı belə tez tərk edəcəklər? Nəyi, necə, nə vaxt etmək lazım olduğunu bütün fəaliyyəti ilə sübuta yetirən Prezident İlham Əliyev isə şübhəsiz, rus sülhməramlılarının nə zaman, hansı şəraitdə gedəcəyini bilir və bu barədə vaxt yetişməmiş danışmağa lüzum görmürdü.**

Sülhməramlılar bölgəyə gələn gündən Qarabağ zəfərimizə yas tutan müxalifət azlığı haray salmışdı ki, rus hərbi kontingenti heç vaxt Azərbaycandan getməyəcək. Prezident bu yüngül ağıl sahiblərinə sübut etdi ki, sülhməramlılar nəinki müvəqqəti gəliblər, hətta vaxtından qabaq gedirlər.

Baxın, 44 günlük savaş bitdikdən sonra Vətən müharibəsində misilsiz qəhrəmanlıqla qazanılmış Zəfəri "natamam savaş" adlandıran siyasi "piyadalar"a müzəffər Ali Baş Komandan zamanında necə cavab verdi? Öncə Laçın–Xankəndi yolunu ekofəallar nəzarətə götürdülər. Sonra işğalçı ölkə ilə arada sərhəd-keçid məntəqəsi qoyuldu və nəhayət, bir günlük antiterror əməliyyatı ilə separatçı xuntanın son bandaları ölkəmizdən qovuldu, Qarabağ problemi birdəfəlik yekunlaşdı. Bütün bu uğurların kulminasiya nöqtəsi isə rus sülhməramlılarının Qarabağı tərk etməsi oldu. Bu, Qarabağda zəfər marafonunun möhtəşəm sonluğudur! Bu qədər böyük, əzəmətli hərbi və siyasi qələbə qarşısında kimin nə sözü ola bilər?

Lakin siyasət meydanında səriştəsi və rolu şahmat taxtası üzərindəki piyadadan



da aşağı səviyyədə olan "siyasətçilər" bu qədər uğurun qarşısında da boşboğazlıq etməkdən çəkinmirlər, həqiqətə uyğun olmayan, bir-birinə zidd nəticələr çıxarırlar. Çünki nəyin necə baş verməsindən, hansı nəticənin hasil edilməsindən asılı olmayaraq, gerçəyə müxaliflik göstərmək bu başabəla tör-töküntünün mövcudluq formasına çevrilib. Belə zavallı özünüifadədən əl çəkmək isə onlar üçün yox olmaq deməkdir.

Ruslar Qarabağdan getmək istəmirdilər. Bunu hər kəs bilirdi. Əslində, bu bölgədə strateji maraqları olan hər hansı bir başqa ölkə də Rusiyanın yerində olsaydı, buradan getmək istəməzdi. Ancaq indi ruslar iki dövlət başçısının qarşılıqlı razılığı ilə bu addımı atmalı oldular.

"İlham Əliyev Qarabağı qaytarsın, ömürlük prezident seçilsin", "rusları torpaqlarımızdan çıxartsın ona əhsən deyək" söyləyənlər indi az qala Qarabağı "erməni, rusun Azərbaycana hədiyyə etməs"i qənaətindədirlər. Bu, siyasi iflasın ən rəzil bir nöqtəyə çatdığından xəbər verir. Bu siyasi xəbislik, milli qeyrətsizlikdən əlavə, həm də kənar ağaların xalqımızın tarixi qəhrəmanlığını, misilsiz Zəfərini aşağılamaq sifarişinin xəyanətkar icrasıdır.

Qoy bu nökər xisləti müxaliflər bilsinlər ki, Qarabağ münaqişəsinin xalqımızın köklü maraqlarına uyğun olaraq sona çatdırılması nəyi, necə və nə vaxt etməyi hamıdan yaxşı bilən dövlət başçımızın müdrik və qətiyyətli siyasəti ilə gerçəkləşdirildi. Burada ikinci bir malahizəyə, şübhəyə, uydurmaya yer ola bilməz.

Son olaraq deyirik: xalqımızın indiki maraq və istəyinə uyğun olaraq, Rusiya sülhməramlıları gedirlər. Çünki ölkəmiz özü regionda sülhün təminatçısına çevrilib. Başa çatmış Qarabağ münaqişəsi daha bir reallıq yaradıb: artıq sülh məramı və onun təminatı Azərbaycanın öz əlindədir – sülhməramlılığı ümumxalq missiyasıdır. Belə olan halda sual yaranır: bəs sizin məramınız nədir, ey məramsızlar?!

**Fikrət YUSİFOV,**
**professor**

**Günün sualı**

**Neçə gündür ki, Gürcüstanda etiraz aksiyaları davam edir. Qərbyönümlü fəallar, QHT, KİV və siyasi partiyalar parlamentə təsir göstərmək, "Xarici agentlər haqqında" Qanunun qəbul edilməsinə mane olmaq istəyirlər. Aprelin 15-dən etibarən vüsət alan aksiyalar getdikcə alovlanır, siyasi çalar kəsb edərək cəmiyyəti iki qütbə bölür, qarşı-qarşıya qoyur.**

Proseslərin qızışmasının bir səbəbi də qeyd olunan aksiyaların ABŞ tərəfindən dəstəklənməsindədir. Qərb mediası aksiyaya informasiya dəstəyi verir. Onu "demokratların avtokratlar üzərinə yürüşü" kimi təqdim edir. Yəni, Gürcüstanda avtokrat idarəçiliyi tərəfdarları qanunu dəstəkləyirlər; demokratlar isə aktın qəbuluna etiraz edirlər.

Etirazçılar Qərbdən təkcə informasiya dəstəyi deyil, həm də siyasi güc alırlar. "Gürcü arzusu" partiyası "Xarici agentlər haqqında" Qanun layihəsini parlamentə təqdim etdiyi ilk gündən–aprelin 3-dən etibarən ABŞ-dən təpgi görüb. Dövlət Departamentinin sözçüsü Metyu Miller aprelin 5-də açıqlama yayaraq "Biz Gürcüstan parlamentində "xarici agentlər haqqında" qanun layihəsinin qəbul edilməsindən dərin narahatlıq keçirirk", – deyib. Avropa İttifaqı da eyni mövqeyi sərgiləyib. İttifaq adından yayılmış bəyanatda vurğulanır ki, "Xarici agentlər haqqında" Qanun ABŞ-dən kənarda formalaşan istənilən şəxs, qurum və şirkətlər "Xarici Agentlərin Qeydiyyatı Aktı"nın təsir dairəsinə düşür. Onlar Ədliyyə Departamentində qeydiyyata düşüb fəaliyyətlərini bu əsasda qurmalıdırlar. Yəni istənilən prosesin maliyyə dövriyyəsinin ən azı 80 faizi ABŞ-nin nəzarətində olmalıdır. Bu çərçivəni aşanlar xarici agent kimi qeydiyyata düşməli, fəaliyyətlərini bu qanuna uyğunlaşdırmalı və daha ciddi nəzarət altında saxlanılmalıdırlar.

İndi "Xarici Agentlərin Qeydiyyatı Aktı"nın tətbiq olunmasına yönəlik nəzarət də gücləndirilib. Qanundan irəli gələn prinsiplərin qorunması üçün ABŞ Ədliyyə Departamenti, Milli Təhlükəsizlik Departamenti (NSD), Daxildə Əks-Kəşfiyyat və İxrac Nəzarəti Bölməsi (CES) tərəfindən paralel nəzarət həyata keçirilir.

Təqdimat formasından asılı olmayaraq, xarici agent qanunu ABŞ-nin xarici və daxili siyasət kursunun qorunmasına

# ABŞ "Xarici Agentlərin Qeydiyyatı Aktı"ndan imtina edərmi?

qəbul edilərsə, bu, Gürcüstanın Avropa İttifaqına üzvlüyü yönündə aparılan danışıqlara zərbə vuracaq.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Problemin əsl mahiyyəti də bu nöqtədən başlayır. Təcrübə göstərir ki, Qərb mediası hər hansı bir mövzunun üzərinə gedirsə, mahiyyəti dəyişir. Hadisəni kontekstdən çıxarır, təmsilçisi olduğu ölkənin maraqları mövqeyindən şərh edir. Beləliklə, beynəlxalq ictimai rəyi çaşdırır. Hazırda Gürcüstanda baş verənlərə yanaşma da bu kontekstdədir.

Əslində, Gürcüstan parlamentində müzakirəyə çıxarılan qanun layihəsinin adı və motivi fərqlidir. Onun gerçək adı "Xarici təsirin şəffaflığı haqqında" Qanun layihəsidir. Qərb mediası isə fərqli təqdimat seçib, layihəni beynəlxalq ictimai rəydə qıcıq doğuran 2 fərqli adla təqdim edir. Bəzən "Xarici agentlər haqqında" Qanun, bəzən də "Rus qanunu" kimi adlandırır. Məqsədləri bəllidir. Yanlış təqdimatlar verməklə beynəlxalq ictimai rəyi çaşdırmaq, Gürcüstan hakimiyyətinə qarşı təzyiqləri artırmaq, fakt qarşısında qoyub layihənin qəbul edilməsindən yayındırmaq istəyirlər. Necə ki, bunu keçən ilin mart ayında etmişdilər. Qanun layihəsi 2023-cü ildə ilk dəfə gündəmə gətirilində beynəlxalq kampaniya keçirmiş, hakim partiyaya təzyiq göstərmiş, məsələni gündəmdən çıxarmışdılar. İndi də eynisini təkrarlamaq niyyətindədirlər. Elə rəy yaradırlar ki, guya, bu qanun qəbul edilərsə, Gürcüstan Rusiyanın təsir dairəsinə düşəcək, Avropaya inteqrasiyadan üz döndərəcək. Beləliklə, emosiyaları coşdurur, etiraz aksiyalarını qızışdırırlar.

Hansı ki, qanun layihəsinin müzakirəyə çıxarılmasına ciddi zərurət vardır. Məsələn, 2023-cü ilin oktyabr ayında Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti müəyyən edib ki, Tbilisidəki "İbis" otelində dörd gün ərzində qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün "hökuməti devirmək, polisə müqavimət göstərmək" mövzusunda təlimlər keçirilibdir. CANVAS və "Şərq-Qərb İdarəetmə İnstitutu" vasitəsilə təşkil edilmiş bu təlimlər USAID tərəfindən maliyyələşdirilib. Qəribə olan həm də budur ki, USAID bu tədbiri "xərçəng xəstəliyindən əziyyət çəkənlərə yardım" adı altında keçirib. Məqsəd hüquq-mühafizə orqanlarının diqqətini yayındırmaq, gürcü fəallar üçün "iğtişaşları qızışdırmaq və hökumətin devrilməsinə yönəlmiş təlimlərin" keçirilməsini təmin etmək olub. Təlim iştirakçılarına zorakı etirazlar, piket xətləri, nəqliyyatın pozulması və hökumət binalarının işğalı ilə bağlı dərslər veriblər.

Problem ondadır ki, bu insident Gürcüstanda USAID-in və digər Qərb donor institutların adlarının qarışdığı ilk qalmaqal deyil. Qeyd edilən "donor institutların" müdaxiləsi ilə Gürcüstanda siyasi vəziyyət dəfələrlə qarışıb, siyasi kataklizmlər yaşanıb. Gürcüstan hökuməti indi bu problemi birdəfəlik həll etmək istəyir. "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi qəbul edilərsə, imkan yaranacaq ki, ölkəyə daxil olan xarici "yardımların" təyinatı müəyyənləşdirilsin. Humanitar yardımlar adı altında dövlət çevrilişi üçün təlimlər keçirilməsinin qarşısı alınsın və sair.

Amma, bu, ABŞ və regionda maraqı olan digər beynəlxalq güc mərkəzləri üçün əlverişli deyil. Şəffaflaşma onların leqal əlaqələrini kəsir, QHT və KİV-dən sui-istifadə hallarının qarşısını alır. Onlar da güclərini ortaya qoyur, qanun layihəsinin qəbul edilməsini əngəlləmək istəyirlər.

Bu arada qeyd edək ki, ABŞ-nin qanuna qarşı çıxması başqa bir paradoksal halı ortaya qoyur. Məsələ ondadır ki, Xarici agentlər haqqında qanun layihəsinin ideya müəllifi Amerika Birləşmiş Ştatlarının özüdür. Bu qanun Hitler Almaniyasına qarşı mübarizə fonunda ilk dəfə ABŞ-də gündəmə gətirilib və ilk nümunə kimi 1938-ci ildə məhz ABŞ-də qəbul edilib. "Xarici Agentlərin Qeydiyyatı Aktı" (FARA-Foreign Agents Registration Act) adı ilə bu gün də mövcuddur.

İndi onun əhatə dairəsi daha da genişləndirilib. Maliyyə qaynaqlarının, səhmlərinin 20 faizdən çox hissəsi xidmət edir. Bu kursdan kənara çıxanlar, müəyyənləşdirilmiş prinsiplərin ziddinə hərəkət edənlər həmin qanunun müddəaları üzrə cəzalandırılırlar. Təsir dairəsi genişləndirilən qanun indi ictimaiyyətlə əlaqələr, reklam, informasiya fəaliyyəti, fandreyzinq, lobbiçilik və sair kimi ən müxtəlif sahələri, geniş spektrli fəaliyyətləri əhatə edir.

2022-ci ilin aprel ayında ABŞ Konqresinin Hüquq Komitəsi "Xarici Agentlərin Qeydiyyatı Aktı" nı müzakirəyə çıxarıb. Müzakirəyə qatılmış VCT-lər tərəfindən qanun sərt şəkildə tənqid edilib. Amerika Hüquqşünaslar Assosiasiyası təklif edib ki, heç olmasa qanunda istifadə edilmiş terminlər, ifadələr dəyişdirilsin: "Ən azı "agent" sözü "nümayəndə/təmsilçi" sözü ilə əvəzlənsin. Çünki "agent" ifadəsi yanlış təəssürat yaradır. Bu ad altında Ədliyyə Departamentində qeydiyyatdan keçənləri ləkələyir, cəmiyyətin gözündən salır".

Çıxışçılar həmin qanunun KİV və QHT sektoruna, ifadə azadlığına neqativ təsirindən də narazılıq ediblər: "Bu qanundan siyasi məqsədlər üçün sui-istifadə edilir, tənqidçilər susdurulur. KİV-lər məcbur edilirlər ki, bu qanun əsasında qeydiyyata düşmək üçün özlərinin fəaliyyətləri ilə bağlı bütün təfərrüatları, o cümlədən, məlumat mənbələrini açıqlasınlar. Hansı ki, demokratik mühitlərdə media vasitələri məlumat mənbəyini açıqlamağa məcbur edilə bilməz. Məlumat mənbəyini açıqlamaq yalnız məhkəmə hökmü ilə istisna hallarda olmalıdır".

"Xarici Agentlərin Qeydiyyatı Aktı"nda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən, kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə bağlı xüsusi müddəalar vardır. Həmçinin, qanunun tətbiq edilməsinə nəzarəti həyata keçirən Ədliyyə Departamentinin bu məsələ üzrə əlavə şərtləri də mövcuddur. Həmin şərtlərə əsasən, "Amerika siyasətinə təsir etməyə cəhd göstərən dövlətlərin ərazisində təsis edilmiş, ABŞ-də müxbir postu açmaq istəyən KİV qurumları da "xarici agent" kimi qeydiyyatdan keçməli, fəaliyyətlərini bu qanuna uyğunlaşdırmalıdırlar".

Məhz bu şərtə uyğun olaraq, Çinin "Sinxua" Xəbər Agentliyi, Çin Mərkəzi Televiziyası, "China Daily" qəzeti ABŞ-da "xarici agent qanunu" çərçivəsində hərəkət edirlər. Eyni prinsip Rusiyanın RİA Novosti , "Sputnik", "Russia Today", Koreyanın KBS telekanalına və digər bir sıra ölkələrin media vasitələrinə də tətbiq edilib. 2019–2020-ci illərdə Ədliyyə Departamenti Türkiyə dövlət televiziyasının da xarici agent kimi qeydiyyata alınmasının zəruriliyi barədə rəy verib.

Qanuna əsasən, Amerika ictimai rəyinə və siyasətinə təsir etmək məqsədi ilə aparılan bütün fəaliyyətlər bu qanuna tabe olmalıdırlar.

Paradoksal haldır ki, "Xarici agentlər" mövzusunu əhatə edən qanunlar digər ölkələrdə – Rusiyada, Macarıstanda, Bolqarıstanda, Kanadada, Avstraliyada, Ukraynada, Gürcüstanda qəbul edildində və ya qəbul edilməsinə təşəbbüs göstəriləndə hər dəfə ABŞ tərəfindən etirazla qarşılanır. Əgər bu qanun mahiyyəti üzrə azadlıqların ziddinədirsə, ABŞ özü nümunə göstərərək, "Xarici Agentlərin Qeydiyyatı Aktı"ndan imtina edə bilərmi?

GÜNÜN LAYİHƏSİ

# Xəzər də evlərimizə şirin su axıdacaq

(əvvəli 1-ci səhifədə)

Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi bir daha onu göstərir ki, respublikamızda belə bir təşəbbüsün gerçəkləşdirilməsində əsas məqsəd Azərbaycanın sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, son illərdə iqlim dəyişmələrinin təsiri nəticəsində su ehtiyatlarının azalmasının qarşısını almaqdır.



Mütəxəssislərin bildirdiyinə görə, son 20-30 ildə respublikamızın su ehtiyatları 10-15 faizə qədər azalıb. Əlbəttə, bu, bir sıra amillərlə, məsələn, tələbatın artması, su ehtiyatlarından qeyri-səmərəli istifadə və su itkilərinin çoxalması ilə bağlı olub. Ona görə də vəziyyətdən çıxış yolu kimi alternativ su mənbələrindən biri–Xəzər dənizi suyunun duzsuzlaşdırılması qənaəti artıq qətiləşdirilib.

Yeri gəlmişkən, respublikamızda "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda alternativ su mənbələrindən istifadə ilə bağlı tədbirlərin görülməsi, xüsusilə, dəniz suyunun duzsuzlaşdırılaraq içməli su əldə edilməsi məsələsi öz ifadəsini tapıb. Şübhəsiz ki, ölkəmizdə bununla bağlı təcrübə də var. Məsələn, Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən kompleksin yaradılması bunun bariz ifadəsidir.

Xatırladaq ki, Xəzər dənizi suyunun duzsuzlaşdırılması kompleksi 2013-cü ildə istifadəyə verilib. 2016-cı ildə burada əlavə tikinti işləri aparılmadan ikinci xətt quraşdırılıb. Hər xəttin istehsal gücü 1000 kubmetrə bərabər olub. Yəni gün ərzində dənizdən qəbul edilən 2500 kubmetrə yaxın duzlu su müəssisəyə daxil olduqdan sonra həmin sudan 2000 kubmetri içməyə yararlı hala gətirilib.

Sözügedən infrastrukturda aparılan tikinti və yenidənqurma işləri nəticəsində dənizdən suyun götürülməsi üçün uzunluğu 200 metr olan damba inşa edilib. Müəssisədə əks osmos membranları ilə təchiz olunan yüksək texnoloji avadanlıq və elektron idarəetmə sistemi qurulub. Həcmi 500 və 200 kubmetr olan xüsusi örtüklə izolyasiya edilən üç metal su çəni quraşdırılıb, tutumu 500 və 2500 kubmetr olan yeraltı su anbarları inşa edilib.

Onu da qeyd edək ki, Salyan rayonunun Xıdırlı kəndi və ətrafda olan yaşıllıqların salındığı ərazilərdə su ehtiyatları məhduddur. Ona görə də həmin zavoddan əldə edilən sudan istifadə hazırda əsas həll yolu kimi tətbiq olunmaqdadır. Bu gün həmin sudan Salyan rayonu ərazisində salınan 700 hektar yaşıllığın, o cümlədən zeytun plantasiyalarının və ildə bir milyondan artıq əkin materialları yetişdirilən "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" Açıq Səhmdar Cəmiyyətinin balansındakı tinglik sahələrinin suvarılmasında istifadə edilir. 2013-cü ildən ölkəmizdə həyata keçirilməsinə başlanılan pilot layihə hazırda da uğurla həyata keçirilir.

Dəniz suyunun duzsuzlaşdırılması müəssisəsində gündəlik 2 min kubmetrədək suyun təmizlənməsi nəzərdə tutulub. Ötən il ərzində 600 min kubmetr su təmizlənərək istifadəyə verilib.

Prezident İlham Əliyevin "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Sərəncamına əsasən, Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində yeni pilot layihənin həyata keçirilməsi də nəzərdə tutulub.

**Ekspert rəyi**



**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**

Dövlətimizin başçısı İlham Əliyev Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında son illər ölkəmizdə həyata keçirilən infrastruktur obyektləri barədə danışarkən Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi haqqında fikirlərini də diqqətə çatdırıb. Hazırda adıçəkilən bu layihə üzərində işin aparıldığını bildirən dövlətimizin başçısı deyib ki, sözügedən təşəbbüs gerçəkləşəndən sonra Xəzər dənizinin suyundan həm suvarma üçün, həm də içməli su kimi istifadə ediləcək. Dünyanın bir neçə ölkəsinin duzsuzlaşdırma sahəsində böyük təcrübəyə malik olduğunu vurğulayan Azərbaycan Prezidenti respublikamızın Xəzər dənizi kimi böyük su hövzəsi olduğunu, bu imkandan səmərəli istifadə ediləcəyini vurğulayıb.

Qeyd edim ki, Azərbaycan Cənubi Qafqazda su hövzəsi ehtiyatlarına görə, Gürcüstan və Ermənistandan geridə qalır. Lakin buna baxmayaraq müəyyən imkanlar da var. Xəzər dənizi suyunun duzsuzlaşdırılması layihəsi də məhz bunun bariz nümunəsidir.

Fikrimcə, ölkəmiz su emalı sahəsində İsrailin aparıcı şirkətləri ilə əməkdaşlıq etməlidir. Xəzər dənizinin duzsuzlaşdırılması və Azərbaycan ərazilərindən bundan istifadə edilməsi əvvəlki illərdə də aktual bir mövzu olub. Çünki buna çox böyük ehtiyac var. Belə ki, Cənubi Qafqazın su ehtiyatının 62 faizi Gürcüstana, 28 faizi Ermənistana məxsusdur. Azərbaycanda isə bu göstərici cəmi 10 faizdir. Bunun da 70 faizi transsərhəd çayların payına düşür.

Bir müddət öncə Azərbaycan və İsrail şirkətləri arasında Xəzər dənizinin duzsuzlaşdırılması ilə əlaqədar anlaşma memorandumu imzalanıb. İsrail şirkəti öz sahəsi üzrə kifayət qədər böyük təcrübəyə malikdir və indiyə qədər 40 ölkədə fəaliyyət göstərib, indiyədək 400-dən artıq sutəmizləyici zavod tikərək istismara verib.

Azərbaycanın su ehtiyatlarının məhdud olması ondan səmərəli istifadəni aktual edir. Bütün hallarda bu məsələyə kompleks yanaşma tələb olunur. Başqa sözlə, respublikamızın su ehtiyatlarının məhdud olması ondan səmərəli istifadəni zəruri edir. Xəzər dənizinə onu ən çox su ilə təmin edən Volqa çayı da daxil olmaqla, irili-xırdalı 130-dan çox çay axır. Buna rəğmən, Azərbaycanın qarşıdakı dönəmlərdə də su ehtiyatları baxımından problem yaşayacağı istisna deyil.

Bu kimi çətinliklərin yaşanmaması üçün, ilk növbədə, sudan səmərəli istifadənin müasir texnologiya üsulu ilə həyata keçilməsinə ciddi ehtiyac var. Eyni zamanda, Xəzərin suyundan istifadə olduqca vacibdir. Çünki bu, su anbarlarına olan ehtiyacı nisbətən azaldacaq. Duzsuzlaşdırmadan öncə su anbarlarına suyun saxlanılması məsələsinin həlli də yəqin ki, gündəlikdə olacaq. Digər tərəfdən, çayların Xəzərə tökülüb duzlaşandan sonra duzsuzlaşdırılaraq istifadə olunmasına da diqqət yetiriləcək. Təbii ki, su duzlaşmadan öncə su anbarlarda istifadə olunarsa, bu, daha çox rentabelli fəaliyyət olar. Amma bütün hallarda Xəzərin suyunun duzsuzlaşdırılması, ondan içməli su və suvarma üçün istifadə edilməsi səmərəli olacaq.

*Vaqif BAYRAMOV*
*XQ*



## Vergiödəyiciləri – 1,5 milyon nəfər

**Cari il aprel ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 537 min vergiödəyicisinin 87,3 faizi fiziki şəxslər, 12,7 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.**

Dövlət Vergi Xidmətinin məlumatında daha sonra qeyd edilir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergiödəyicilərinin ümumi sayı 7,5 faiz, o cümlədən fiziki şəxslərin sayı 7,4 faiz (ümumi artımın 86,5 faizi), hüquqi şəxslərin sayı isə 8 faiz (ümumi artımın 13,5 faizi) artıb. Vergiödəyicilərinin ümumi sayında hüquqi şəxslərin xüsusi çəkisi 12,7 faiz olub. Kommersiya qurumlarının sayı isə 179 min 26 vahid təşkil edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,7 faizə yüksəlib.

Aprel ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 36 min 134 vahid təşkil edərək 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 31,5 faiz təşkil edib.

## Sığorta gəlirləri – 3 ildə 587 milyon manat

**Mərkəzi Bankın sədri Taleh Kazımov Bakıda keçirilən "Azərbaycan Insurtech Zirvə" tədbirində son 3 ildə sığorta sektoru aktivlərinin 34,2 faiz, balans kapitalının isə 7,7 faiz artdığını bildirib.**

T.Kazımov daha sonra qeyd edilən dövr ərzində ölkədə sığorta haqlarının 67,8 faiz çoxalaraq 1 milyard 223 milyon manata, sığorta ödənişlərinin isə 26,3 faiz yüksələrək 587 milyon manata çatdığını vurğulayıb.

Mərkəzi Bankın sədri, həmçinin sözügedən sektorun ümumi daxili məhsulda (ÜDM) payının 1 faiz artdığını və yaxın gələcəkdə bu göstəricinin 2 faizə çatdırılmaq mümkün olacağını da xatırladıb.

## Neft-qaz sektoruna yatırım – 1,3 milyard manat

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-mart aylarında Azərbaycanın neft-qaz sektoruna 1 milyard 351 milyon manat vəsait yönəldilib. Bu da 2023-cü ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 2,7 faiz çoxdur.**



Xatırladaq ki, ötən il Azərbaycanın neft-qaz sektoruna 6 milyard 265,5 manat həcmində vəsait yönəldilib. 2022-ci ilin göstəricisi ilə nisbətən ötən il neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 10,9 faiz artıb.

*XQ*



## Kənddə artım davam edir

**Dövlət Statistika Komitəsindən bildirildiyinə görə, cari ilin I rübündə respublikamızda 1 milyard 445 milyon manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.**

Son bir ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,9 faiz artaraq 76,1 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1 faiz artaraq 1 milyard 369 milyon manat olub.

Yanvar-mart aylarında ölkədə diri çəkidə 139 min ton ət, 505 min ton süd, 572 milyon ədəd yumurta və 97 min ton tərəvəz istehsal olunub. Ötən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 0,6 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı 5,2 faiz, tərəvəz istehsalı 2,7 faiz artıb.

## Daşımalar 15 faiz çoxalıb



**Cari ilin birinci rübündə Azərbaycanın nəqliyyat sektoru üzrə gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz artaraq 3 milyard 155 milyon manata çatıb.**

Bu barədə məlumat verən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev daha sonra qeyd edib ki, yanvar-mart aylarında sözügedən sektorun ümumi daxili məhsulda (ÜDM) payı 5,5 faizdən 6,8 faizə yüksəlib.

*XQ*

# Yüksəliş güzəran, rahatlıq tərəqqi gətirir

(əvvəli 1-ci səhifədə)

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən yeni dövrün çağırışlarına uyğun olaraq inamla davam etdirilməsinin nəticəsidir ki, son 20 ildən artıq bir müddətdə ölkəmizdə taleyüklü məsələlərin həlli, genişmiqyaslı sosial-infrastruktur layihələrinin icrası mümkün olub. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sahəsində həyata keçirilən mühüm tədbirlər ölkəmizin dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib. Bunun nəticədir ki, son 20 il ərzində ölkəmizdə ümumi daxili məhsul (ÜDM) 6,2 milyard dollardan 78,7 milyard dollara çatıb. Bu da ÜDM-in real həcminin 4 dəfə artması deməkdir. Təsadüfi deyil ki, Dünya Bankı Azərbaycanı 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil edib.

Son illər Azərbaycanın sosial-iqtisadi tərəqqisini sürətləndirmək məqsədilə yerli və xarici investisiyaların təşviqi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Beynəlxalq təşkilatların da birmənalı olaraq təqdir etdikləri bu siyasətin nəticəsidir ki, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi ildən-ilə artır. Müqayisə üçün deyək ki, 2002-ci ildə iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2,8 milyard dollar idisə, 2022-ci ildə bu göstərici 17,1 milyard dollar təşkil edib. Bütövlükdə isə, son 20 il ərzində 154,1 milyard dolları xarici investisiya olmaqla ölkə iqtisadiyyatına 310,4 milyard dollar vəsait yönəldilib.

Eyni zamanda, Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş olduqca aydın, özündə konkret hədəfləri ehtiva edən, ölkə qarşısında duran əsas məsələlərin həlli üçün mühüm vasitə sayılan məqsədyönlü Dövlət İnvestisiya Proqramının icrası uğurla davam etdirilir. Sözügedən proqramda ölkənin iqtisadi inkişafının sürətləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafını təmin etməklə




yeni iş yerlərinin yaradılması kimi mühüm məsələlərin həlli ilə yanaşı, bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi də nəzərdə tutulur. Ötən müddətdə ölkə əhalisinin firavan həyatının təminatına hesablanmış bir sıra sosial-infrastruktur layihələri icra olunub.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimində Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin əsas məqsədinin ölkəmizin sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, xüsusilə bölgələrdə yaşayan insanların məşğulluğu üçün şərait yaratmaqdan ibarət olduğunu vurğulayıb. Dövlət başçısı deyib ki, son illər ərzində Azərbaycanda həyata keçirilmiş infrastruktur layihələri ölkəmizi tamamilə yeni bir səviyyəyə qaldırıb. Ötən müddətdə respublikamızda elektrik enerjisi, avtomobil və dəmir yolları, içməli su layihələri, o cümlədən suvarma ilə bağlı olan layihələrin səmərəsi getdikcə artır.

Elektroenergetika sahəsinin infrastruktur imkanlarının təkmilləşdirilməsi məqsədilə 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Bunun da nəticəsində əvvəllər elektrik enerjisini idxal edən Azərbaycan elektrik enerjisi ixrac edən dövlətə çevrilib. Ötən müddətdə özünün karbohidrogen ehtiyatlarından səmərəli şəkildə istifadə edən ölkəmiz əhalinin və iqtisadiyyatın "mavi yanacaq"la təminatını xeyli yaxşılaşdırmağa müvəffəq olub. Bu sahədə reallaşdırılan infrastruktur layihələri regionlarda qazlaşdırmanın səviyyəsini 96 faizə çatdırmağa imkan yaradıb. Son illər Azərbaycanın içməli su sektorunda da mühüm infrastruktur layihələri həyat keçirilib. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq respublikanın 33 şəhər və rayon mərkəzində içməli və tullantı su, o cümlədən 13-də içməli su şəbəkələrinin, 20-də isə tullantı sutəmizləyici qurğularının tikintisi yekunlaşıb. Bütün bunlara baxmayaraq, qlobal iqlim dəyişikliklərinin səbəb olduğu quraqlıq şəraitində Azərbaycanın su təsərrüfatında müxtəlif layihələrin icrasını zərurət yaranır. Yeri gəlmişkən, Şirvan suvarma kanalının təməlqoyma mərasimində diqqəti bu vacib məsələyə yönəldən dövlət başçısı İlham Əliyev deyib: "Növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri arasında başlıca vəzifə içməli su layihələri və suvarma layihələri olacaqdır... Artıq qəbul edilmiş proqram əsasında Azərbaycanda 10-dan çox su anbarı inşa ediləcəkdir".

Beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu əlverişli geosiyasi məkanda yerləşən Azərbaycan özünün yol infrastrukturunu da dünya standartlarına səviyyəsində yenidən qurub. Ötən müddətdə ölkəmizdə yeni magistral dəmir və avtomobil yolları çəkilib, çoxsaylı körpü və tunellər inşa olunub. Bununla yanaşı, 9 hava yeni limanı tikilib və ya yenidən qurulub. Hazırda isə Laçın hava limanının tikintisi sürətlə davam etdirilir. Ölkədə həyata keçirilən uğurlu sosial siyasətin nəticəsi olaraq son 20 il ərzində əsas hissəsi regionlara aid olmaqla 3600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, 43 olimpiya kompleksi, stadionlar və digər idman qurğuları inşa olunub.

Hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərində özünün maliyyə imkanları hesabına iri miqyaslı tikinti-quruculuq və bərpa işləri həyata keçirir. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayış evlərinin inşası ilə yanaşı, infrastruktur, suvarma və enerji layihələri icra olunur, dəmir yolları, tunellər və hava limanları tikilir.

Artıq dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasının əsas iştirakçısına çevrilmiş Azərbaycan "yaşıl iqtisadiyyat"a keçid və "yaşıl texnologiya"ların tətbiqi istiqamətində irəliləyişlərə nail olmaq üçün sənayenin strukturunun yenilənməsi istiqamətində ciddi addımlar atır. Karbon emissiyalarının azaldılmasına mühüm töhfə verməyə çalışan Azərbaycan özünün zəngin bərpaolunan enerji potensialını hərəkətə gətirmək məqsədilə paytaxtda və regionlarda, xüsusən də işğaldan azad olunmuş ərazilərdə günəş və külək elektrik stansiyalarının tikintisini planlaşdırır. İlkin addımlar isə onu deməyə əsas verir ki, Azərbaycan yaxın illərdə "yaşıl iqtisadiyyat" sahəsində reallaşdırılan infrastruktur layihələrinin icrasına görə də dünyanın qabaqcıl ölkələrindən birinə çevriləcək.

*Mirbağır YAQUBZADƏ*
*XQ*



# Ekoloji sağlamlıq ölkəmizdə dövlət siyasəti prioritetidir

**Artıq bir əsrdir ki, dünya öhdəsindən gələ bilmədiyi yeni reallıqlarla üz-üzədir. Söhbət geosiyasi və geostrateji qarşıdurmalardan getmir. İlk baxışdan çox sadə görünən, lakin dünyanın gələcəyini şübhə altına alan və bəlkə də mövcudluq dilemmasını meydana çıxaran ekoloji fəlakətdən bəhs olunur.**

***Cavanşir FEYZİYEV, Milli Məclisin deputatı***

Qlobal sənayeləşmənin sürətləndiyi XIX əsrdən başlayaraq insanlıq özünün gələcək mövcudluğunun determinantlarını öyrənmədən iqtisadi inkişafa və daim zənginləşməyə can atır. İnkişaf və zənginlik iqtisadi güc və üstünlük qazandırır. İqtisadi güc isə, öz növbəsində, siyasi dominantlığın təmin olunmasına gətirib çıxarır.

Öz siyasətini bu trayektoriya üzrə planlaşdıran bir sıra dövlətlər və onların transmilli şirkətləri artıq dünyanın iqtisadi güc nəhənglərinə çevriliblər. Qlobal miqyaslı siyasi qüdrətin həzzini yaşamağa başladıqları indiki zamanda isə təbiətin dəfolunmaz gücü ilə qarşılaşıblar. Bu gün dünyanı və onun nəhəng güclərini narahat edən əsas məsələ bütövlükdə bəşəriyyətin mövcudluğunu təhdid edən qlobal ekoloji fəlakət təhlükəsidir. Dünyanın inkişafı bu təhlükənin də proporsional olaraq artması ilə müşayiət olunur. Bəs bu dolanbacdan çıxış yolu varmı? Bu sual ətrafında dünyanın dörd bir tərəfində düşünən beyin mərkəzləri hesab edirlər ki, çıxış yolu var. Lakin insanlığın bu çıxış yollarına doğru istiqamət götürməsi üçün dünya birliyini təşkil edən bütün dövlətlərin birgə səyinə ehtiyac var.

Dünya birliyinin fəal, müstəqil və praqmatik siyasət yürüdən dövlətlərindən biri kimi Azərbaycan da bu yolda öz töhfəsini əsirgəmir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı imzaladığı Sərəncam ölkəmizinin qlobal ekoloji sağlamlaşdırma proseslərinə loyallığının və sadiqliyinin təsdiqidir.

Bu çərçivədə 2024-cü ilin Azərbaycanda həyata keçiriləcək qlobal və yerli miqyaslı layihələrin sayı çoxdur. Cari il COP29 tədbirlərinin ölkəmizdə keçirilməsinin özü bu sahədə Azərbaycanın dünya miqyaslı layihələrdə aparıcı rolunu göstərir. Şübhə yoxdur ki, həmin tədbirlər çərçivəsində Azərbaycan dövləti dünya miqyasında ekoloji problemlərin həllinə yönəlmiş yeni ideya və layihələrlə çıxış edəcək və bəlkə də hansısa qlobal miqyaslı hərəkatın başlanğıcını qoyacaq. Bununla yanaşı, ölkə daxilində ekoloji mühitin sağlamlaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər də həmişə dövlətin və cəmiyyətin gündəmində olmuş və bu istiqamətdə çoxsaylı faydalı addımlar atılmışdır.

2011-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" İctimai Birliyi (IDEA) ətraf mühit problemləri ilə bağlı ictimai maarifləndirmə və təhsil xidmətləri göstərir, yerli və beynəlxalq müstəvidə cəmiyyətlərin diqqətini ekoloji problemlərin həlli istiqamətində səfərbər edir. IDEA ötən illər ərzində Azərbaycanda çoxsaylı ekoloji tədbirlərin təşəbbüskarı və təşkilatçısı olmuş, ətraf mühitin sağlamlaşdırılması işinə böyük töhfələr vermişdir.

Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Nəsimi ili" elan olunmuşdu. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkilmişdi. Bu təşəbbüsü yüksək qiymətləndirən BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi belə bir təşəbbüsü təkcə ölkənin deyil, bütövlükdə dünyanın ekoloji sağlamlığına mühüm töhfə kimi dəyərləndirmişdi.

Azərbaycan dövləti daxili imkanlar hesabına səhralaşmanın qarşısının alınması, torpaqların istifadə üçün yararlı hala gətirilməsi istiqamətində bir çox layihələr həyata keçirir. Bu günlərdə təməli qoyulmuş yeni Yuxarı Şirvan suvarma kanalı da belə iri həcmli layihələrdən biridir. Yuxarı Şirvan kanalı ilk dəfə 1958-ci ildə inşa edilmişdir. Ötən 70 ilə yaxın müddətdə kanal davamlı olaraq istismar edilmiş və hazırda səmərəliliyi kifayət qədər azalmışdır. İllər keçdikcə kanalın böyük hissəsi sıradan çıxmışdır. İtkilərə və su sızmalarına görə, ətraf torpaq sahələri şoranlaşmış, əkin üçün yararsız vəziyyətə düşmüşdür. Odur ki, Prezident İlham Əliyevin sərəncamı ilə kanal yenidən inşa ediləcək və beləliklə, on minlərlə hektar ərazidə vətəndaşların torpaqlardan səmərəli istifadəsi təmin olunacaq. 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq.

Müvafiq olaraq kanal boyunca yerləşən əkin sahələri də iki dəfədən çox artırılaraq 230 min hektar əkin sahəsini əhatə edəcək. Şirvan kanalı müasir texnologiyalar əsasında yenidən qurulub istifadəyə veriləndən sonra onun mənsəbində yerləşən Hacıqabul gölü də dolacaq və bunun da təbiətə və ətraf mühitə çox müsbət təsiri olacaq. Kanalın təməlqoyma mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, "...Şirvan kanalı suyun həcminə və əkin sahələrinin əhatəsinə görə ən böyük layihə olacaqdır. Yaxın gələcəkdə 10 rayon üzrə yerləşən məntəqələrdə yeni kanalın əhəmiyyətini hər kəs görəcək". Ölkə başçısı tikilməsi nəzərdə tutulan Qarabağ kanalı haqqında da məlumat verərək bildirib ki, "...Qarabağ kanalının inşası gələn il başlayır. Qarabağ kanalı 115 min hektarı əhatə edəcəkdir. Orada əhatə olunan rayonların sayı 9-a bərabərdir".

Prezident İlham Əliyev yaxın müddətdə Azərbaycanda 10-dan çox su anbarının inşa ediləcəyini və bir neçə ildən sonra ən azı 500 min hektardan çox torpağa su veriləcəyini bildirib. Prezident qeyri-neft sektorunun və kənd təsərrüfatının inkişafını, məşğulluğun artırılmasını, vətəndaşların rifah halının yaxşılaşdırılması, habelə su ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edilməsini yaxın illərdə inkişafımızın əsas istiqamətləri kimi müəyyənləşdirib.

Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa işləri də ekologiyanın sağlamlaşdırılması baxımdan çox mühüm layihələri əhatə edir. Otuz illik işğal müddətində torpaqlarımızın böyük bir hissəsi erməni işğalçıları tərəfindən ekoloji terrora məruz qalıb. Su hövzələrimiz çirkləndirilib və tükəndirilib, faydalı qazıntı yataqlarımız ekoloji baxımdan zərərli olan ibtidai üsullarla, qeyri-qanuni yollarla istismar edilib, meşələrimiz qırılıb və yandırılıb. İndi bu ərazilərdə aparılan abadlıq və quruculuq işləri işğalın ağır nəticələrinin aradan qaldırılmasına və nəticə etibarilə ölkənin ekoloji sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlib. Bu barədə danışan dövlət başçısı qeyd edib ki, "... Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları – cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir".

Prezident Ilham Əliyevin Şirvan iqtisadi rayonuna səfəri zamanı etdiyi çıxışlar və verdiyi açıqlamalar bir daha göstərir ki, ekoloji sağlamlığın təmin edilməsi Azərbaycan dövləti tərəfindən aparılan siyasətin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə aparılan fəaliyyətlər və onların nəticələri isə təkcə ölkəmizin ərazisində təbii-ekoloji mühitin sağlamlaşdırılması üçün deyil, bütövlükdə bəşəriyyətin üzləşdiyi qlobal ekoloji fəlakətin önlənməsi üçün dünya birliyi tərəfindən göstərilən qlobal səylərin tərkib hissəsidir.

## Kamran Əliyev BPA-nın iclasında



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında işgüzar səfərdə olub.**

Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclasında çıxış edən Kamran Əliyev ölkəmizin prokurorluq orqanlarında davam etdirilən islahatlar, habelə Azərbaycan prokurorluğunun BPA-nın işinə verdiyi töhfə haqda məlumat verib.

İclasda bir sıra mühüm xüsusatlar, o cümlədən təşkilatın rəhbər vəzifələrinə seçkilərin keçirilməsi, yeni üzvlərin qəbul edilməsi, hesabatların dinlənilməsi ilə bağlı tövsiyələr, Assosiasiyanın növbəti illik iclas və konfranslarının keçirilməsi və digər məsələlərə baxılıb.

Keçirilmiş səsvermə nəticəsində Baş prokuror Kamran Əliyev yekdilliklə Assosiasiyanın növbəti səlahiyyət müddətinə vitse-prezidenti seçilib.

İclasda həmçinin cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Assosiasiyanın İllik Konfransı və Ümumi Yığıncağı ilə bağlı təşkilati məsələlər müzakirə edilib.

Səfər çərçivəsində Baş prokuror Çinin Honq Konq Xüsusi İnzibati Bölgəsinin Korrupsiyaya Qarşı Müstəqil Komissiyasının (ICAC) rəhbəri Vu Denni ilə görüşüb.

Nümayəndə heyətini salamlayan Komissar Azərbaycanın hüquq mühafizə orqanları ilə, xüsusilə Baş Prokurorluqla münasibətlərə önəm verdiyini bildirərək, qarşılıqlı əlaqələrin genişlənməsinin perspektivlərindən danışıb, uzumüddətli institusional əməkdaşlığın təsis edilməsinin zəruriliyini vurğulayıb.

Baş prokuror Komissiyanın korrupsiya ilə mübarizədə uğurlu fəaliyyətini yüksək qiymətləndirərək, təcrübə mübadiləsi üçün qarşılıqlı səfərlərin və təlimlərin təşkil edilməsi məqsədilə qurumlar arasında işbirliyinin vacibliyini qeyd edib.

Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə işgüzar səfəri başa çatıb.

**XQ**

# Cinayətlərin 85 faizi açılıb

**Aprelin 19-da Daxili İşlər Nazirliyində informasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərlə mübarizədə, cinayət xarakterli müraciətlərə baxılması, cinayətlərin kriminalistik üsul və vasitələrlə açılması sahəsində işlərin vəziyyətinə həsr olunmuş kollegiya iclası keçirilib.**



DİN-in mətbuat xidmətindən verilən məlumata görə, iclasda nazir general-polkovnik Vilayət Eyvazov çıxış edərək bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2024-cü ilin birinci rübündə də məqsədyönlü şəkildə davam etdirilib.

DİN və prokurorluq üzrə qeydə alınmış 8 min 930 cinayətin 85 faizi açılıb. Ağır və xüsusilə ağır cinayətlər, qəsdən sağlamlığa ağır zərər vurmalar, mülkiyyət əleyhinə olanlar, o cümlədən oğurluqlar, soyğunçuluqlar, quldurluqlar, informasiya texnologiyalarından istifadə edilməklə törədilənlər, habelə qrup halında və ailə münaqişəsi zəminində baş verən, əvvəllər məhkum olunmuşlar və yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqazidd əməllər 2023-cü ilin 3 ayı ilə müqayisədə azalıb.

Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, şəxsiyyət əleyhinə olanların, xuliqanlıqların, mülkiyyət əleyhinə kriminal əməllərin, onlardan oğurluqların, dələduzluqların, soyğunçuluqların, hədə-qorxu ilə tələb etmələrin açılması yaxşılaşıb. Qeyri-leqal dövriyyədən 1 ton 329 kiloqram narkotik vasitə çıxarılıb və bu cinayətlərə görə 1572 nəfər məsuliyyətə cəlb edilib. Yol-nəqliyyat hadisələrinin sayında 12,2 faiz, qəzalarda həlak olanların sayında 14 nəfər, xəsarət alanların sayında 39 nəfər azalma qeydə alınıb.

Vətəndaş məmnunluğunun təmin olunmasının, o cümlədən müraciətlərə baxılmasının vəziyyətinə toxunan nazir bu istiqamətlərdə nəticələrin müsbət olduğunu, cinayət yolu ilə şəxslərə vurulmuş 77 milyon 668 min 996 manat maddi ziyanın 80 faizinin istintaq prosesində ödənildiyini diqqətə çatdırıb.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı məruzələr dinlənilib.

Müzakirə olunan məsələlər ətrafında Baş idarə, idarə və ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulan tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə icra olunduğunu, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirildiyini, şəxsi heyətin xidməti vəzifələri böyük əzmlə yerinə yetirdiyini diqqətə çatdırıb.

Vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

O, cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin müəyyənləşdirilib məsuliyyətə cəlb olunmaları işinin daha da gücləndirilməsi üçün əməliyyat-texniki tədbirlərin dairəsinin genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Bu sahədə təbliğat işinin effektivliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanaraq ölkə əhalisinə çatdırılması istiqamətində əlavə tədbirlərin görülməsi, hər bir ərazi polis orqanında cinayət xarakterli müraciətlərin həssaslıqla araşdırılması, fiziki şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması işinə yeni yanaşmaların tətbiqi, cinayətlərin kriminalistik üsul və vasitələrlə açılması sahəsində mütərəqqi beynəlxalq təcrübə əsasında əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi kimi mühüm məsələlərlə bağlı daxili işlər naziri konkret tapşırıqlar verib.

**XQ**

Eynulla Mədətli – 70

# Diplomatiya ilə elmi qovuşduran ömür yolu

**Alim haqqında yazmaq asan iş deyil. Xüsusiə tarixçi alimlərin yaradıcılıq tarixini elmi təhlil etmək ikiqat çətindir. Çünki tarix elm kimi fərqli interpretasiyaları olan, lakin son dərəcə vacib bir ciddi araşdırma sahəsidir. Buna görə də tarixi araşdıranlar haqqında sanballı söz demək tarixin özü qədər məsuliyyətli və həm də çətin işdir. Lakin əgər tarixçi alimi tanıyırsansa, onun idrakı ilə yanaşı, mənəvi-əxlaqi və bütövlükdə, emosional dünyasını duya bilirsənsə, barəsində söz demək artıq zövq məsələsi olur.**

Mən tarix elmləri doktoru Eynulla Mədətlini bir neçə ildir ki, tanıyıram. Biz bir kollektivdə – Fəlsəfə və Sosiologiya İnstitutunda çalışırıq. Eynulla müəllim həm direktorun elmi işlər üzrə müavini, həm də Heydər Əliyev irsini araşdıran şöbənin müdiridir. Həm şöbə, həm də bütöv institut miqyasında hörməti çoxdur. Buna çalışqanlığı, zəkası, vətənsevərliyi, müstəqil dövlətçiliyə bağlılığı, təmkini və qayğıkeşliyi ilə nail olmuşdur. Əməkdaşlar Eynulla müəllimə hətta şəxsi məsələləri ilə bağlı çəkinmədən müraciət edə bilirlər.

Özü haqqında danışmağı xoşlamır. Lakin ümummilli lider Heydər Əliyevlə Naxçıvanda birgə çalışdıqları mərhələdən həvəs və sevgi ilə danışır. Eynulla müəllim Heydər Əliyevin fəaliyyətini konkret faktlarla gözəl tədqim edə bilir. O dərəcədə ki, Ulu öndər haqqında obyektiv təsəvvür yaranır. Tarixçi alim üçün böyük üstünlükdür!

Eynulla müəllim haqqında danışmağı sevdiyi mövzu İran, Pakistan, Əfqanıstan və Ukraynada səfir işləyən müddətdə həmin ölkələrin tarixindən bəhs etməkdir. Burada Azərbaycan diplomatının səfir işlədiyi ölkənin mədəniyyətinə və tarixinə dərin hörməti ilə, xalqımızın tarixini və mədəniyyətini həmin ölkələrdə tanıtmaq, eləcə də, həmin ölkələri azərbaycanlılara anlatmaq həvəsi maraqlı şəkildə birləşir. Təsadüfi deyildir ki, Eynulla Mədətli həm 1996–2001-ci illərdə yüksək diplomatik vəzifədə çalışdığı (Azərbaycanın Təbrizə təyin edilmiş baş konsulu və Azərbaycan səfirliyinin müşaviri) İran, həm də səkkiz il uğurla xidmət etdiyi Pakistanla bağlı maraqlı əsərlərin müəllifidir. Həmin əsərlərdə E.Mədətli İran və Pakistan tarixini ciddi, obyektiv və elmi araşdırmaqla yanaşı, onların dövlətçilik həyatında türklərin oynadığı rolu da mənbələrə və dəqiq faktlara əsaslanaraq təhlil edir. Həm də bu barədə danışanda Eynulla müəllim ölkələr arasında əməkdaşlığın inkişafı ruhuna köklənmiş məsələlərdən bəhs edir.

Bununla bağlı Eynulla müəllimin söhbətlərinə institutda hər kəs maraq və diqqətlə qulaq asır. Etiraf edək ki, biz Eynulla müəllimin təqdimatında İran və Pakistan türklərinin tarixlərində mövcud olmuş bir sıra əhəmiyyətli məqamları öyrənə bilmişik.

Burada bir haşiyə çıxmaq istərdim. Müasir tarixşünaslıqda (məsələn, fransız tarixşünaslığında) şəxsi avtobioqrafiyadan bütöv toplumun tarixinin müəyyən özəlliklərinə nəzər salmaq metoduna söykənərək, Eynulla müəllim haqqında fikir söyləməyə ehtiyac görürəm. Onu konkretləşdirim ki, bu halda "bir tarixçi alimin, Azərbaycan ziyalısının və təcrübəli diplomatının avtobioqrafiyası ilə fəaliyyətinin xarakteri arasında hansı əlaqə ola bilər?" sualına cavab axtarmağa çalışıram. Tərcümeyi-halına baxaq.

Eynulla Mədətli (Mədətli Eynulla Yadulla oğlu) 1954-cü il aprelin 18-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Biçənək kəndində anadan olmuşdur. 1975-ci ildə Naxçıvan Dövlət Universitetinin tarix fakultəsini bitirmişdir. 1981-ci ildə Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunun qiyabi aspiranturasını bitirmişdir. 1984-cü ildə fəlsəfə elmləri namizədi elmi dərəcəsi (indiki təsnifata görə, fəlsəfə doktoru), 1994-cı ildə isə dosent elmi adı almışdır. 1975–1996-cı illərdə fasilələrlə Şahbuz Rayon Partiya Komitəsində təlimatçı, Naxçıvan Vilayət Partiya Komitəsinin təbliğat-təşviqat şöbəsində mühazirəçilər qrupunun rəhbəri, Naxçıvan Vilayət Partiya Komitəsinin İdeologiya şöbəsinin müdiri, Naxçıvan Dövlət Universitetində müəllim, dosent, kafedra müdiri, prorektor vəzifələrində işləmişdir. 1990–1995-ci illərdə Naxçıvan MR Ali Məclisinin deputatı olmuşdur.

18 aprel 2002-ci il tarixində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin edilmişdir. 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının, eyni zamanda, iqamətgahı



İslamabadda olmaqla, Əfqanıstan İslam Respublikasında səfiri vəzifəsinə təyin edilmişdir.

2010-cu ilin iyulun 15-də Prezident İlham Əliyevin sərəncamı ilə Pakistandan geri çağırılaraq Azərbaycanın Ukraynadakı səfiri vəzifəsinə təyin edilmişdir. 2015-ci ilin iyununda xidmət müddəti bitdiyinə görə səfir vəzifəsindən geri çağırılmışdır.

Bundan sonra Eynulla müəllim yenidən elmi fəaliyyətlə məşğul olmuşdur. Belə ki, 2016-cı ilin yanvarından AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda mənbəşünaslıq və tarixşünaslıq şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışmışdır. 2017-ci ilin fevral ayından AMEA Fəlsəfə İnstitutunun, hazırda Fəlsəfə və Sosiologiya İnstitututunun elmi işlər üzrə direktor müavinidir, ictimai əsaslarla "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsinə rəhbərlik edir. 2019-cu ildən tarix elmləri doktorudur, fövqəladə və səlahiyyətli səfir diplomatik dərəcəsi vardır. Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir, 3 övladı və 7 nəvəsi vardır.

Burada bir metodoloji reduksiya etmək istərdim. İngilis (məsələn, U.Vordsvortun "Avtobioqrafiya" əsəri) və fransız tarixşünaslarının bir qismi (məsələn, F.Ariesin "Köhnə zamanda uşaq və ailə həyatı" əsəri və s.) ingilis və fransız cəmiyyətləri üçün xarakterik olan bir sıra zadəgan ailəsinin avtobioqrafik həyatında bütövlükdə ölkə tarixinin müəyyən özəllikləri haqqında fikir formalaşdırmağa çalışmışlar. Uğurlu alınmışdır.

Azərbaycan cəmiyyəti üçün xarakterik olan ziyalı ailəsinin avtobioqrafik həyatından bütövlükdə Azərbaycanda ziyalılığın, vətəndaşlığın fəlsəfəsinə baxmaq faydalıdırmı?

Tarixçi alim E.Mədətlinin yuxarıda qısa verdiyimiz avtobioqrafik tarixçəsi bütövlükdə Azərbaycan ziyalılığı aspektində maraqlı faktorları aydınlaşdırır. E.Mədətli Azərbaycanın kəndlərinin birində həyatı zəhmətlə keçmiş bir ailədə dünyaya gəlmişdir. Şübhəsiz, ailə mühiti onu uşaqlıqdan zəhmətə, elmə, təhsilə və Vətənə bağlılığa yönəltmişdir. Eynulla müəllimin dünyaya gəldiyi ailədə milli adət-ənənəyə böyük sayğı olmuşdur. Bu barədə onun, ümumiyyətlə, Biçənək kəndi haqqında danışdıqlarından sezmək mümkündür. Hətta, evə daxil olanda ayaqqabıların çıxarılması (bu yerdə fransız tarixşünası F.Ariesin malikanədə yaşayan zədagən ailəsini təsvir edərkən, hətta, ayaqqabını qapının önünə düzmək qaydasını belə təsvir etməsi yadıma düşür) mədəniyyətindən tutmuş qonşularla münasibətin saxlanmasına qədər bir çox incə məqamlara toxunması bütövlükdə o ailə haqqında təsəvvür yaradır.

E.Mədətlinin ailəsi zəhmətkeşliklə bərabər milli adət-ənənəyə xüsusi diqqət yetirən və eyni zamanda, xalq müdrikliyini mənimsəmiş böyüklər tərəfindən idarə olunmuşdur. Eynulla müəllim zəhmətkeşliklə xalq müdrikliyinin bir-birini tamamladığı çox sayda epizodlar danışa bilər. Deməli, Azərbaycan ziyalısı ailədə mövcud olan ənənəvi zəhmətsevərliklə xalq müdrikliyinin birliyi üzərində yetişə bilər.

Bu tale yolunda indiyə qədər olan müddətdə onun özü ilə bir sıra keyfiyyətləri dəyişmədən "daşıdığını" görürəm. Onları belə təsnif edə bilərəm: hər zaman zəhmətə alışqanlıq, dünyaya gəldiyi məkana sayğını saxlamaq, elmi fəaliyyətə üstünlük, Azərbaycan poeziyasına böyük bağlılıq, Vətənə sevgi və ayrıca, Heydər Əliyevin siyasi liderliyinə və dövləti fəaliyyətinə sadiqlik!

Bu keyfiyyətləri Eynulla müəllimin həyat yolu və malik olduğu şəxsi özəllikləri təsdiq edir. Əsərlərinə baxdıqda yuxarıda vurğuladığımız kimi tariximizə və bütövlükdə türk tarixinə milli təəssübkeşlikdən və dəqiq təhlildən "yoğrulmuş" yanaşmanı görürük. Rəhbərlik etdiyi şöbənin əməkdaşları da həmin istiqamətdə araşdırmalar aparırlar. Eynulla müəllimin şöbəsi hər il Ulu öndərin siyasi irsinə, o cümlədən, azərbaycançılıq məfkurəsinə aid mövzularda fəlsəfi-elmi toplu dərc edir. Artıq sayca 4-cü olan "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq" (2023) adlı toplu işıq üzü görmüşdür. Onların hər biri birbaşa Heydər Əliyevin siyasi irsinin müxtəlif aspektlərdə tədqiqinə həsr edilən məqalələrdən ibarətdir.

Tarix elmləri doktoru E.Mədətli monoqrafiyalar yazır və institutda həyata keçirilən müxtəlif elmi tədqiqat layihələrin işlənməsində fəal iştirak edir. O, altı monoqrafiyanın müəllifidir. Ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar işləyib nəşr etdirdiyi "Heydər Əliyevin siyasi irsi: Azərbaycançılıq və Azərbaycan – Türkiyə birliyinin fəlsəfəsi" əsəri xüsusi maraq doğurur. Son olaraq E. Mədətli "Heydər Əliyev – İlham Əliyev. Müasir Azərbayanın liderlik fəlsəfəsi və dövlətçilik təcrübəsi" (2023-cü il) adlı kolleketiv monoqrafiyanın yazılmasında fəal iştirak etmiş və işin böyük həcmini üzərinə götürmüşdür.

Sonda E.Mədətlinin alim-ziyalı kimi iki özəlliyini də vurğulamaq istərdim. Eynulla müəllim həm aydın izah edə bilir, həm də aktual mövzu formalaşdırmaq istiqamətində konkret ideyalar verir. Eynulla müəllimlə həmmüəllif olduğumuz "Bir millət, iki dövlət: fəlsəfi-tarixi təhlil" (2020) adlı monoqrafiyamız onun ideyasından yaranmışdır. Aydın şəkildə araşdırma mövzusunu formalaşdırmış və mən də tam qəbul etmişəm.

E. Mədətlinin alim-ziyalı kimi digər özəlliyi böyük vətənsevərliyidir! Sözün həqiqi mənasında, Azərbaycançı, dövlətini, xalqını, millətini dərindən sevən tədqiqatçıdır! Bu keyfiyyətini Eynulla müllimin malik olduğu bütün üstün keyifyyətlərin fövqündə görürəm.

Öncə qoyduğum suala bir də yekun olaraq qayıdıram: Azərbaycan ziyalı-alimlərinin avtobioqrafik tarixlərindən cəmiyyətin tarixinə keçid mümkündürmü? Məncə, nəinki mümkündür, hətta çox vacib aktual məsələdir. Çünki Azərbaycan ziyalılarının hər biri ayrıca enerji, bilik, tərbiyə, Vətənə bağlılıq qaynağıdır. O cümlədən, Eynulla Mədətli kimi alimlərin avtobioqrafik tarixləri bizlərə çox şeyləri demirmi?

70 yaşın mübarək Azərbaycan ziyalısı! Hələ uzun illər bir-birimizə işlədiyimiz kollektivdə "Sabahınız xeyir!" deyə bilək!

***Füzuli QURBANOV,***
***fəlsəfə elmləri doktoru***

# ABŞ-nin rus sülhməramlıları ilə bağlı münasibəti başa düşülən deyil

## *Petel, əslində, nələri deyirdi?*

**Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxmasına müxtəlif reaksiyalar var. Ancaq onlardan heç biri ABŞ-nin münasibəti kimi deyil. Münasibət necədir, yəqin çoxunuza məlumdur. Hesab edirik ki, məsələnin üzərində xüsusi dayanmağa ehtiyac var.**

Yada salaq ki, Birləşmiş Ştatların Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Petel iki gün əvvəl bildirmişdi ki, ölkəsi Qarabağda hərbi əməliyyatlara son qoyan və rus sülhməramlılarının ərazidə yerləşmələrini təmin edən Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli Bəyanatına tərəfdar deyil. Görəsən, bu cümlə nə deməkdir? Həqiqətən, çox maraqlıdır və əslində, Petelin hansı məqamı qabartmaq istədiyi onun sonrakı fikirlərindən açıq-aydın duyulur. Amma əvvəlcə...

Beləliklə, ABŞ Dövlət Departamentinin sözçüsü bildirib ki, rəsmi Vaşinqton Rusiya ordusunun Cənubi Qafqaz regionunun daha dinc və sabit olmasına töhfə verdiyini sübuta yetirən heç nə görməyib və ötən ilin payızında Qarabağda baş verən hadisələri misal çəkib. Onun "hadisələr" dedikdə, Azərbaycanın konstitusyon quruluşunun bərpası naminə reallaşdırdığı lokal xarakterli antiterror tədbirlərini nəzərdə tuduğu aydındır. Bu nəticəyə gəlirik ki, ABŞ Rusiya sülhməramlılarının ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təminatı prosesinin gerçəkləşməsinə yol verməməli olduğu qənaətindədir. Yol veribsə, deməli, dincliyi və sabitliyi qorumayıb və ya qoruya bilməyib. Ən əsası isə "Rusiya özünün nə qədər etibarsız müttəfiq və ya tərəfdaş olduğunu" göstərib.

Təsəvvür edin ki, Birləşmiş Ştatlar uzun illər ərzində ATƏT-in Minsk qrupunun üç həmsədr ölkəsindən biri olub. Yəni, Azərbaycanla Ermənistan arasında vasitəçilik edib. İndi isə Petel, faktiki olaraq, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasına yol verilməsinin düzgün olmadığına dair fikir səsləndirir. Yəni, elə bu cümlə rəsmi Vaşinqtonun Qarabağ məsələsinə yanaşmasını müəyyənləşdirən kifayət qədər ciddi indiqatordur. Əlbəttə, söhbət ədalətsiz yanaşmadan gedir. Axı ortada beynəlxalq hüquq var. O hüquq ki, Qarabağı Azərbaycan torpağı kimi qəbul edir. Üstəlik, Birləşmiş Ştatlar da Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bir daha belə nəticəyə gəlirik ki, ABŞ-nin ATƏT-in Minsk qrupundakı fəaliyyəti ermənipərəstlik məqsədi güdən riyakarlıq imiş. Deməli, Petelin əvvəlki fikrində ifadəsini tapmış ABŞ-nin üçtərəfli bəyanatın tərəfi olmadığına dair fikrinin açması budur: sənəddə tərəf kimi Rusiya yox, Birləşmiş Ştatlar təmsilçilik etsəydi, Azərbaycan Qarabağa sahiblənə, yəni özünün konstitusyon quruluşunu bərpasına nail ola bilməyəcəkdi.

Aydındır ki, rəsmi Vaşinqton hər vasitə ilə çalışır ki, Rusiyanın əhəmiyyətini heçə endirsin. Bununla bağlı səslənmiş ayrı-ayrı bəyanatları da anlayışla qarşılaya bilərik. Amma indiki halda Petelin dediklərinə heç cür söz tapmaq olmur. O, ermənipərəst dairələrin çərənləmələrindəki "Qarabağın Azərbaycan tərəfindən işğalı" ritorikasını təkrarlayır və belə yanaşma həmin dairələrin əndazəyə sığmayan hərəkətlərinə dolayısı ilə leqallıq qazandırmaqdır. Üstəlik, nəzərə alaq ki, ABŞ-nin Azərbaycanın Qarabağa sahiblənməsinə imkan verməməsi deyiminin Ermənistanın təhlükəsizliyinin qayğısına qalmaq məntiqi də var...

Əlbəttə, heç də o sualı vermək istəmirik ki, nəyə görə 44 günlük müharibəni ABŞ yox, Rusiya dayandırdı? Nə üçün həmin vaxt Birləşmiş Ştatların söz sahibinə çevrilmədiyini də mübahisələndirmək fikrindən uzağıq. Hər halda, ölkə hazırkı mövqeyində idisə, Azərbaycanı haqq yolundan döndərə bilməzdi. Bu fikrimiz elə qarşılanmasın ki, savaşa son qoyan Rusiya hadisə və proseslərə səmimi yanaşmışdı. Moskva da zaman-zaman Qarabağ kartı ilə Ermənistandan tutunmağa, onu yenidən öz orbitinə qaytarmağa cəhdlər göstərmişdi. Ancaq fakt faktlığında qalır: Rusiya Ermənistanı Azərbaycanın əlində tamamilə məhv olmaqdan qurtardı. Şübhə yoxdur ki, müharibə uzansaydı, hər iki tərəfdən itkilər çoxalacaqdı. Ona da şübhə yoxdur ki, güclü tərəf olan Azərbaycan öz itkilərinin təzminatı baxımından düşməni son mənzilinədək qovacaqdı. Son mənzil isə bugünkü Ermənistanın paytaxtı, qədim türk yurdu olan İrəvandır. Yaxın tarixin örnəkləri var – SSRİ işğalçı nasist Almaniyasını öz sərhədlərindən uzaqlaşdırdıqdan sonra dayanmadı və onu Berlinədək qovdu. Heç kəs onu işğalçı kimi tanımadı. Çünki hamı anlayırdı ki, Sovetlər Birliyi dayansa, Almaniyanın güc toplayıb yenidən qəsbkarlığa girişməyəcəyinə təminat yoxdur.

Bəli, 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanat həm də Ermənistanın işğalçı niyyətə düşməməsi üçün təminat idi. Ancaq ötən müddətdə baş verənlər göstərdi ki, Qərb dünyası Rusiyanın təminatını istəmir və Ermənistanı avantürizmə çə-



kir. Sonuncunun sürətlə silahlandırılması da sözümüzün təsdiqidir. Tam aydındır ki, rəsmi İrəvan 44 günlük müharibədən sonra, necə deyərlər, bir əldə iki qarpız tutmağa çalışmışdı – həm Qərbə doğru istiqamət götürmək, həm də Qarabağı əlində saxlamaq. İkincini bacarmadı, birinci məqsədə gəldikdə isə Ermənistanın sancılar içərisində olduğu aşkardır. Çünki Qərb ölkəni anti-Rusiya cəbhəsinə çevirməklə, avantürizmə sürükləyir. Hazırkı durumda ABŞ Dövlət Departamentinin rəsmisi V.Petelin dedikləri Vaşinqtonun İrəvan üçün özünü daha yaxşı illüziya vədi verən tərəf qismində təqdim etməsidir.

Bütün bunlardan sonra V.Petel deyir ki, Birləşmiş Ştatlar davamlı və ləyaqətli sülhə nail olmaq üçün Ermənistanın və Azərbaycanın səylərini qətiyyətlə dəstəkləyir və sülh prosesinin dəstəklənməsinin davamına hazırdır. Ümumən, Qərbin siyasi kuluarlarında Bakı və İrəvan arasındakı münasibətlərdən söz açılarkən, tez-tez "ləyaqətli sülh" ifadəsi işlədilir. Görəsən, "ləyaqətli sülh nə deməkdir? Azərbaycan torpaqlarının işğalı kimi duruma göz yummaq ləyaqətsizlik deyildi, indi Ermənistanı qorumaq ləyaqət işidir?! Yaxud, erməni avantürizmini qorumaqdırmı ləyaqətli sülhü təmin etmək?!

Bəli, V.Petelin Rusiya sülhməramlılarının Qarabağdan çıxmalarını şərh edən bəyanatındakı fikirlər ABŞ-nin timsalında, bütövlükdə, Qərb dünyasının nəinki anti-Rusiya köklənişinin sərsəm məhsuludur, eyni zamanda, bir daha sübut olunur ki, həmin Qərb dünyası Rusiyanı Cənubi Qafqazda persona non-qrata etmək naminə hər cür ədalətsizliyə və beynəlxalq hüquq pozuntusuna göz yumacaq potensialda, istənilən rikayarlığı gerçəkləşdirmək əzmindədir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Replika




# Yenə də "motal" əl çəkmir...

## *Dəfələrlə məğlub olmuşların xam xəyala qapılmaları təbii haldır*

***Erməni mediası nostalji hissi ilə hələ də Qafqaz bölgəsinə müvəkkil edilmiş amerikalı, fransalı diplomatları "ATƏT-in Minsk qrupunun həmsədri" kimi qələmə verməkdə davam edir. Bakının tarixin arxivinə göndərdiyi bu qurumun yenidən "özfəaliyyətə" başlamasını arzulayan Ermənistan cəmiyyətinin "bəlkə də qaytardılar" xülyasından əl çəkmək istəmədiyi göz qabağındadır.***

Misal üçün, hökumətə yaxın "news.am" saytı ABŞ Dövlət katibinin Qafqaz danışıqları üzrə baş müşaviri Luis Bononu izləyicilərə "ATƏT-in Minsk qrupunun amerikalı yeni həmsədri" kimi təqdim edir. Amma nə həmin Bono, nə də keçmiş həmsədrlərin hər biri özünü bu statusda qələmə verir. Onlar keçən əsrdən qalma bu institutun Bakının üç il altı ay bundan əvvəl tarixin arxivinə göndərməsi faktı ilə razılaşıblar. Təkcə ATƏT-in Minsk qrupunun "səyahətbaz" həmsədrlərinin 28 ildə bacarmadığı işi deyil, eyni zamanda, BMT-nin işğalçı Ermənistana qarşı qəbul etdiyi dörd qətnaməsini beynəlxalq hüquqa tam uyğun şəkildə icra edən Azərbaycan üçün bütün bunlar arxada qalmış mərhələ, oxunub bağlanmış kitabdır. Amma nə edəsən ki, məşhur zərb-məsəlimizin – "İt əl çəkdi, motal əl çəkmədi" kəlamının ermənilərin ifasında təsdiqini görürük.

Ermənistanda beyinlərindən keçmişin ab-havasının çəkilmədiyi revanşist-separatçılar ATƏT-in Minsk qrupu adlı vasitəçilər-həmsədrlər "ansamblının" fəaliyyətinin yenidən bərpa ediləcəyi xəyalı ilə yaşayırlar. Onlar Bakı üçün arxada qalmış, canını tapşırmış və morqa göndərilmiş belə bir qurumu, sanki, İrəvan konyakı ilə "diriltməyə" çalışırlar. Eynən Mirzə Cəlilin Şeyx Nəsrullahı kimi...

***

Doğrudur, Azərbaycanın Zəfəri, Ermənistanın biabırçı məğlubiyəti başa çatmış 44 günlük müharibədən sonra da Minsk qrupu özünün bölgədə mövcudluğunun ömrünü uzatmaq niyyətini gizlətmirdi. Hətta 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan dörd gün sonra – noyabrın 14-də tərəflərə ünvanlanan müraciət də yaymışdı. Həmin müraciətdə həmsədrlər Ermənistan–Azərbaycan sərhədində baş verən son hadisələrlə bağlı "dərin narahatlıqlarını" ifadə etmiş, həmçinin tərəfləri "qızışdırıcı ritorikadan və təxribat xarakterli hərəkətlərdən" çəkinməyə, 10 noyabr bəyanatı və digər birgə razılaşdırılmış atəşkəs razılaşmalarına əsasən "götürdükləri öhdəlikləri tam şəkildə yerinə yetirməyə" çağırmışdılar.

ATƏT-in Minsk qrupunun keçmiş həmsədrlərinin Azərbaycana sonuncu səfəri 2020-ci il dekabrın 12-də baş tutub. Azərbaycan Prezidenti İlham Əliyev Endrü Şofer (ABŞ), Stefan Viskonti (Fransa), Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov (o, görüşdə rusiyalı həmsədr İqor Xovayevi əvəz edirdi – red.) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşiki axırıncı dəfə məhz həmin gün qəbul edib. Oxucuda o görüşdə yaşanan ab-hava barədə aydın təsəvvür yaransın deyə Prezident İlham Əliyevin həmsədrlərə xitabən etdiyi çıxışından qısa epizodu diqqətə çatdırırıq:

"Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir".

Çıxışının sonunda cənab Prezident həmsədrlərə, bir növ, Minsk qrupunun fəaliyyətinə xitam verildiyini bildirən vida sözünü dedi: "Bakıya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm: Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat veriləndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var...".

Yəni, dövlətimizin başçısı həmsədrlərə diplomatik tərzdə başa saldı ki, 28 illik xidmətinizə görə sizə "təşəkkür edir və yaxşı yol" diləyirik. Daha sizə ehtiyacımız yoxdur, bundan sonra Bakıya turist kimi təşrif buyura bilərsiniz, amma indi gedin ayrı işlərlə məşğul olun. Vəssalam, şüttamam!

Erməni mediası "keçmişdə qalanları" bu günün reallığı kimi yazmaqda azaddır. Amma, bizə elə gəlir ki, indi onlar üçün ən doğru siyasi ritorika "ATƏT-in Minsk qrupu"nu Avropa İttifaqı ilə əvəzləməkdir. Nə qədər ki, Aİ və onun Ermənistandakı mülki missiyası hələ gündəmdədir və "retro"ya çevrilməyib, onlardan gen-bol yararlansınlar. Sonra gec olar...

***İ.HƏSƏNQALA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 79 (30483) 20 aprel 2024-cü il, şənbə

## "Xurşidbanu Natəvan" böyük səhnəyə qayıdır

**Bu gün Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində Xalq yazıçısı İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesi əsasında səhnələşdirilən eyniadlı tamaşa yenidən nümayiş olunacaq.**



Əsərin mövzusu İbrahim xanın nəvəsi, axırıncı Qarabağ xanı Mehdiqulu xanın qızı şairə Natəvanın həyatından götürülüb. Natəvan xalqın vəziyyətini yaxşılaşdırmaq üçün yollar arayır, əlindən gələni etməyə çalışır. O, həm də incə insani duyğuları məharətlə tərənnüm etmək bacarığına malik istedadlı bir şairədir.

Tamaşada Xalq artistləri Məleykə Əsədova, Rafiq Əzimov, Hacı İsmayılov, Kazım Abdullayev, Əməkdar artistlər Anar Heybətov, Elşən Cəbrayılov, Rəşad Bəxtiyarov, Mirzə Ağabəyli, Kazım Həsənquliyev, Elnar Qarayev, Əlvida Cəfərov, Ayşad Məmmədov, Elşən Rüstəmov və digər aktyorlar çıxış edəcəklər.

***AYTƏN***
***XQ***

# "Anan boyuna qurban..."

## *Şaquli santimetrlər nə deyir?*

**Bu günlərdə tanınmış yazıçı-dramaturq, Əməkdar incəsənət işçisi Firuz Mustafa "Facebook"da "Bəzi adamların böyük şöhrəti onların boyunu da uca göstərir" sərlövhəsi ilə maraqlı paylaşım edib. Dəyərli ziyalımız "Kimin boyu nə qədərdir? Optimal boy həddi neçədir? Ən ucaboy xalq hansıdır?" kimi suallara cavab tapmağa çalışıb.**



Beləliklə, müəllif yazır:

"Birdən xatırladım ki, bir neçə gün əvvəl, yəni 12 aprel Yuri Qaqarinin kosmosa uçan günü idi. Düşündüm ki, görəsən, ilk kosmonavtın boyu nə qədər olub?

Verilən məlumatlara görə, Qaqarinni boyu 1 metr 57 santimetr olub.

Təəccüblənməyə ehtiyac yoxdur. Kosmonavtların və tankçıların mütləq əksəriyyətinin boyu, adətən, o qədər də uca olmur. Yəni onlar bəstəboy olurlar. Məsələ burasındadır ki, həm kosmonavtlar, həm də tankçılar öz işlərini, yəni peşə fəaliyyətlərini məhz dar "lükdə" icra edirlər. Elə bu səbəbdən də onların bədən quruluşunun yığcam olması zərurətdən irəli gəlir.

Mən özüm keçmiş tankçı kimi deyə bilərəm ki, bizim alayda boyu 1 metr 75 santimetrdən uca olan kimsə yox idi. Yeri gəlmişkən, məşhur tankçımız, Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanov da bəstəboy olub.

Əlbəttə, boyun ucalığı və ya qeyri-ucalığı çox az şeyi dəyişə bilər. Uzaqbaşı, boy-buxun məsələsi gənc sevgililərin şəxsi baxışında, fərdi dünyagörüşündə müəyyən rol oynaya bilər.

Əslində dünyadakı ən istedadlı və görkəmli adamların əksəriyyəti ortaboy və bəstəboy olub. Məsələn, makedoniyalı İsgəndərin boyu 150, Əmir Teymurun boyu 145, XIV Lüdovikin boyu 156 santimetr olub. Napoleon, II Yekaterina, Puşkin də bəstəboy olublar.

O ki qaldı sənət adamlarına, məsələn, Ledi Qaqanın boyu 155, Şakiranın boyu 157 santimetrdir. Bu siyahını, əlbəttə, uzatmaq da olar.

"Böyük adamlar" sırasında ucaboylulara da təsadüf olunur. Məsələn, I Pyotrun və I Nikolayın boyu 204, Avraam Linkolnın boyu 193 santimetr olub. Bill Klinton və Donald Tramp uzunboyludurlar.

Konkret adamlardan başqa, boyu yüksək və kiçik olan xalqlar da var. Məsələn, niderlandlar planetin ən ucaboylu adamlarıdır. Belə ki, holland kişilərinin orta boy həddi 182, almanlarda isə bu göstərici 180 santimetrdir. Qardaş türklərin, daha doğrusu türkiyəlilərin orta boyu 176 santimetrdir. Hə, boyca kiçik olan xalqlar da var. Məsələn, İndoneziya tərəflərdə yaşayan Şərqi Timor adamlarının, sakinlərinin boyu ortalama 1,55 metrdir. Mərkəzi Afrika ölkələrinin əksər sakinlərinin (məs., Qabon, Kamerun, Konqo, Ruanda) boyu da aşağıdır. Nədənsə çoxları elə bilir ki, yaponlar qısaboydur. Yox, elə deyil. Onların orta boyu 172 santimetrdir. Yəni bizdən bir az ucaboydurlar.

Boyu oyrənən alimlər də var. Onların dediyinə görə, ən optimal boy həddi 173 santimetrdir.

Deyəsən, mənimlə həmboy olan kəsləri nəzərdə tutublar.

Hər nə isə...

Əslində bunları elə-belə yazdım.

Amma bir məsələni xüsusi qeyd etmək istəyirəm. Zənnimcə, bizim ölkəmizdə boy məsələsi qənaətbəxş deyil. Məlumatlara görə, kişilərin boyu 170, qadınların boyu isə 163 santimetrdir. Bax bunu, elə-belə yazmadım".

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

**Elin yaddaş saxlancından**

# Səməd Vurğunun dovğa əhvalatı

**Qaratikan həmişə xalq arasında və bədii ədəbiyyatda əsasən mənfi mənada, ayrılıq və hicran rəmzi kimi işlədilib. Lakin təsərrüfat və məişətdə ondan heç də az istifadə etmirlər. Bağ-bağçalara, həyətyanı sahələrə qaratikan kolundan çəpər çəkirlər. Təndir qalayanda qurumuş kollar yaxşı alışıq hesab edilir. Arılar qaratikan çiçəklərindən bal çəkirlər. Onun sarıya çalan çiçəklərinin ortasında olan qara toxumlar quşların sevdiyi dənlərdir.**

Deyilənə görə, müharibə illərində, aclıq-qıtlıq vaxtı camaatın da onun toxumları ilə qidalandığı vaxtlar olub. Qaratikanın müalicəvi əhəmiyyəti də var. Dəri infeksiyası zamanı qaratikanın təzə budaqlarını ocaqda yandırır və ondan ayrılan yağı zədəli nayihə üzərinə sürtürlər.

Qaratikanın kulinariya əhəmiyyəti barədə maraqlı bir əhvalat da var...

Vaxtilə xalq şairi Səməd Vurğun Füzuli rayonunda oxuçularla görüşdən sonra bir evə dəvət olunur. Şairin adına layiq süfrə açırlar. O, dovğa kasasını qarşısına çəkərək bir-iki qaşıq yeyəndən sonra ev sahibinə deyir:

– Əzəldən dovğa sevənəm. Bu dovğanın ləzzətindən ağzım dada gəldi. Mən bu dovğanı qırqovullu plova dəyişmərəm! Sonra şair sözünə ara verib soruşur:

– Bu dovğanın ayranına dağkeşnişi, quzuqulağı, ispanaq, nanə və yarpızdan başqa, nə qatılıb ki, belə dadlıdır?

Dovğanı bişirib süfrəyə verən evin xanımını çağırırlar. Səməd Vurğun üzünü ona tutub soruşur:

– Ay bacı, bu dovğanın bu cür dadlı alınmağının sirri nədədir? Bu, mənim üçün çox maraqlıdır!

Xanım deyir:

– Səməd qağa, burada heç bir sirr yoxdur. Mən də ayrana bütün qadınların istifadə etdiyi dovğa göylərindən tökmüşəm. Amma onlardan fərqli olaraq mən dovğanı təzə kəsilmiş qaratikan budağı ilə bulayıram. Əlbəttə ki, onun yarpaqlarını, tikanlarını yaxşı-yaxşı yuyuram. O, dovğaya özgə dad verir.



Səməd Vurğun deyir:

– Afərin sənə, ay bacı! Bu, Azərbaycan kulinariyasında yenilikdir. Bundan sonra könlüm dovğa istəyəndə sizə gələcəyəm...

***Süleyman QARADAĞLI***

**Sağlamlıq**

# Meyvə, meyvə, yenə də meyvə!

**Bəzi qidalar var ki, onları çox yemək bədəndəki iltihabın azalmasına kömək edir. Bu, çox vacib məsələdir. Çünki iltihab xroniki xəstəlik və xərçəngin səbəbidir. Dietoloq Trista Best antioksidant təsirli ən güclü qidaları açıqlayıb.**



Deyib ki, iltihab əslində immun sisteminin təbii reaksiyasıdır. Bu, o deməkdir ki, orqanizmin hər hansı bir hissəsində proses başlayıb və immunitet bu prosesi dayandırmağı bacarmır. Xroniki iltihab qarşısı alınmayanda ürək, damar, diabet və xərçəng xəstəliklərinin yaranmasına gətirib çıxarır.

Həkim bildirib ki, bu riski gənc yaşdan azaltmaq lazımdır. Bunun üçün mümkün qədər çox tərəvəz, meyvə, giləmeyvə yemək lazımdır.

**İltihabı azaldanlar** – sitrus meyvələri, böyürtkən, moruq, çiyələk, qaragilədir. Mütləq rasiona kivi, qreypfrut, ananas daxil etmək lazımdır. Tropik meyvələrdə bromealyn adlı ferment var, o, güclü iltihabəleyhinə təsiri ilə məşhurdur, bədəndəki artıq yağı, piyi yuyur. Həmin meyvələrdə immunitet üçün vacib olan bütün vitaminlər var. Ananas artrit, revmatizm, həzm sistemi xəstəlikləri üçün dərmandır.

**E** vitamini və monoyağlarla zəngin avokado da qanda şəkəri salır, iltihabı azaldır.

**C** vitamini ilə zəngin kivi, portağal da vacibdir. Çünki gündə 500 milliqram vitamin C iltihabı azaldır.

Alma, gilas və gilənar da podaqra, revmatoid artrit xəstələri üçün vacibdir. Alma kversetin mənbəyidir, antioksidant təsiri var.

***Z.HÜSEYNLİ***
***XQ***

# Saturnun halqaları və peykləri

**Çəkisinə görə, təxminən, 17 Yer kütləsi ağırlığında olan nüvəsi Saturn planetinin 60 faizini tutur, bu da əvvəllər güman edildiyindən xeyli çoxdur. Nüvə ilə qaz naləsinin arasındakı sərhəd qeyri-səlisdir.**

Saturnda baş verən ən maraqlı hadisələrdən biri planetin halqalarla əhatə olunmasıdır. Halqalar hələ 1610-cu ildə Qaliley tərəfindən müşahidə edilmişdi. Onlar müxtəlif sürətlə Saturnun ətrafına dolanırlar.



Bəs halqalar nədən yaranır? Sən demə, onlar xırda buz və daş hissəciklərindən ibarətdir. Hissəciklər həm xırda toz dənəcikləri, həm də iri qaya parçaları şəklində olur.

Hazırda Saturnun yeni kəşf edilmiş 20 peyki ilə, ümumilikdə, 82 peyki var. Bu rekord daha əvvəl 79 peyk ilə Yupiter planetinə aid idi.

Saturnun, köhnə adı Zühəldir. Günəş sistemində Yupiterdən sonra ən böyük ikinci, Günəşdən məsafəsinə görə altıncı planetdir. Saturn Roma mifologiyasına görə tanrılardan birinin adıdır.

***PÜNHAN***
***XQ***

# Kanadada oğurluq rekordu

**Toronto polisi Kanada tarixində ən böyük qızıl oğurluğunu törətməkdə şübhəli bilinən 6 nəfəri saxlayıb. Cinayətkarlar yerli hava limanından 21 milyon Kanada dolları (15,2 milyon ABŞ dolları) dəyərində 6600 qızıl külçəsi, 2,7 milyon Kanada dolları (1,9 milyon ABŞ dolları) nağd pul oğurlayıblar.**

2023-cü ildə cinayətkarlar hava limanına yük maşını ilə gələrək Sürixdən gətirilən qızıl külçələri maneəsiz yükləyib və qaçıblar. Oğurlanmış qızıl daha sonra əridilib satılıb. Müstəntiqlərin fikrincə, quldurlar pulu silah almağa xərcləyiblər.

Oğruların yük maşınında 65 növ odlu silah aşkar edilib. Oğurluqda iştirak etdiyi iddia edilən daha 3 nəfər isə hələ də axtarışdadır.

***XQ***

# Bu yaz bir başqa yazdır, gül-çiçəyi solmazdır...



**Elşən AĞALAR (foto)**

# Aranda duman, dağlarda yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 20-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək.**

Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 13-18°, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 65-70, gündüz 40-45 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi ərazilərdə qısamüddətli yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 25-30°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.



***Q.QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Kövsər Məmmədovaya anası

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Xalq qəzeti"nin kollektivi qələm yoldaşları Məhərrəm Səfərliyə əzizi

**BƏHRUZ NƏBİZADƏNİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin sabiq deputatı

**HADI RƏCƏBLİNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova qardaşı

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi

**HADI RƏCƏBLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3881
SİFARİŞ 825
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00